Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI




№ 07 iyul 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ

HÜQUQ JURNALI

№ 07 İYUL 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
"Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
"Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:

**RƏSMİ MƏLUMAT**

İstanbulda 22-ci Dünya Neft Konqresi keçirilib........................................5
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviyaya rəsmi səfəri ........................................................................9
Azərbaycan Prezidenti İlham Əliyev Rusiyada işgüzar səfərdə olub ........................................................................12
Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib........................................................................13

**BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**

Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələri ədliyyə və daxili işlər nazirlərinin görüşü keçirilib ........................................................15

**ƏDLİYYƏ NAZİRLİYİNDƏ**

Ədliyyə Nazirliyinin kollegiya iclası keçirilib........................................20
Ədliyyə naziri Daşkəsən rayonunda vətəndaşları qəbul edib................22
Ədliyyə Nazirliyində görüş ..................................................................23
İcra işinin səmərəliliyinin artırılması diqqət mərkəzindədir ..................24
Penitensiar xidmətdə əməliyyat müşavirəsi ..........................................25

**MƏLUMATLAR, ELANLAR...**

Ədliyyə orqanlarına qulluğa qəbul üzrə müsabiqə iştirakçılarının nəzərinə ........................................................................26
Notariat fəaliyyəti ilə məşğul olmaq istəyənlərin nəzərinə ....................27
Yoxlamaların hüquqi tənzimlənməsi sahəsində maarifləndirmə işi davam etdirilir ........................................................................27
Ədliyyə Akademiyasının məlumatları ....................................................28

**MÜSAHİBƏ**

Nurəddin Mustafayev: İcra xidmətində qanunçuluğun möhkəmləndirilməsi bu sahədə işin səmərəliliyinə müsbət təsir göstərib ..............................30

**YENİ QANUNLAR, FƏRMANLAR...**

“Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ................................................35
“Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 noyabr tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................................................35
“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ........................................................................36
“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ....................36









**YENİ QANUNLAR, FƏRMANLAR...**
“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ...................................... 43
“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ........................ 44

# İstanbulda 22-ci Dünya Neft Konqresi keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev Konqresdə iştirak edib*



**İyulun 9-10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak etmək üçün Türkiyə Respublikasında səfərdə olub.**

İstanbulun ev sahibliyi etdiyi 22-ci Dünya Neft Konqresi çərçivəsində iyulun 10-da prezidentlərin tədbiri keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Konqres ötən il iyulun 15-də Türkiyədə baş verən hadisələr zamanı həlak olan şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Dünya Neft Şurasının sədri Cozef TOT 1933-cü ildə yaradılan bu qurumun dünya neft sektorunun bütün sahələrini əhatə etdiyini və hər üç ildən bir keçirildiyini bildirib. Bu dəfə İstanbulda "Enerji gələcəyimizə körpülər" devizi altında təşkil olunan 22-ci Dünya Neft Konqresinə 100-dən çox ölkədən 50 nazir, 5 mindən çox dövlət nümayəndəsi və şirkət rəhbərləri qatılıb.

Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak Moskvada keçirilən son Konqresdən sonra bir çox işlərin görüldüyünü, mühüm nəticələrin əldə olunduğunu bildirib. Həmçinin, son illərdə Türkiyədə neft-qaz sektorunun inkişafı ilə bağlı görülən işlərdən bəhs olunub, enerji sahəsinə artan tələbatın ödənilməsinin, özəl sektorda yatırımların həcminin artırılmasının, milli enerji siyasətinin təməl prinsiplərinin gücləndirilməsinin diqqət mərkəzində saxlanıldığı vurğulanıb, boru kəməri layihələrinin genişləndirilməsinin əhəmiyyətinə toxunularaq qlobal enerji layihələrində Türkiyənin hər zaman təbii müttəfiq olacağı bildirilib.

Bolqarıstanın Baş naziri Boyko Borisov Balkan regionunda neft-qaz sektoru baxımından önəmli mövqeyə malik olan ölkəsinin gələcəkdə Avropanın təbii qazın paylanması mərkəzinə çevrilmə ehtimalının böyük olduğunu bildirib və bu məsələdə Balkan regionunun əhəmiyyətindən danışıb. O, Azərbaycandan gələn təbii qazın qəbulu və ötürülməsində də Bolqarıstanın önəmli rol oynadığını diqqətə çatdırıb.




*Konqresdə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı*

Albaniyanın Baş naziri Edi Rama da neft-qaz sektorunun inkişafı sahəsində ölkəsinin böyük imkanlarının olduğunu, bu baxımdan Balkan regionunda önəmli məntəqəyə çevrildiyini bildirib. Neft-qaz, ümumiyyətlə, enerji sektorunda Albaniyanın böyük perspektivlərindən danışan Edi Rama Xəzərdən gələn enerjinin 2020-ci ildə Avropaya çatacağını və Albaniyanın da təbii qazın qitəyə ötürülməsində önəmli məntəqə olduğunu söyləyib, enerji sahəsində fəaliyyət göstərən şirkətləri ölkəsinə sərmayə qoymağa dəvət edib.

"Dünyada önəmini qoruyub saxlayan enerji sektorunun müasir dövrdə ölkələrin və xalqların mənafeyinə xidmət etməsi vacibdir", - deyən Türkiyənin Baş naziri Binəli Yıldırım bu sahədə ölkəsinin həyata keçirdiyi tədbirlərdən danışıb, enerji təhlükəsizliyinin siyasi problemlərinin həllinə, sülhün təmin olunmasına xidmət etməsinin vacibliyini bildirib. Binəli Yıldırım Türkiyənin Azərbaycan və Gürcüstan ilə birgə həyata keçirdiyi Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələrinin önəmini vurğulayıb, hazırda "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində həyata keçirilən Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsinin əhəmiyyətindən danışıb.

Sonra Türkiyənin dünya enerji xəritəsində oynadığı roldan bəhs edən videoçarx göstərilib. Videoçarxda Türkiyənin mədəniyyətindən, geosiyasi mövqeyindən, bu ölkənin bölgədə sülhün və təhlükəsizliyin qorunmasındakı rolundan danışılıb. Qədim zamanlarda İpək Yolunun kəsişməsində yerləşən Türkiyənin bu gün enerji kəmərlərinin kəsişdiyi nöqtədə durmasının əhəmiyyəti vurğulanıb.

Hazırda enerji təminatının ölkəsinin xarici siyasətində ən önəmli yerlərdən birini tutduğunu deyən Serbiya Prezidenti Aleksandr Vuçiç bu məsələ ilə bağlı gələcəyə yönələn tədbirlərdən danışıb, beynəlxalq əməkdaşlığın diqqət mərkəzində saxlandığını bildirib. Etibarlı enerji tədarükünün Serbiya üçün xüsusi önəm daşıdığını deyən Aleksandr Vuçiç ölkəsinə ixrac olunan mavi yanacağın həcminin artırılması ilə bağlı tədbirlərin görüldüyünü vurğulayıb, alternativ enerji mənbələri ilə bağlı həyata keçirilən siyasətin Serbiyanın gündəmində olduğunu diqqətə çatdırıb.

Dövlətimizin başçısı İlham Əliyev tədbirdə çıxış edərək Türkiyənin Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə uğurla, sürətlə inkişaf etdiyini, ölkələrimizin bütün məsələlərdə bir-

birinin yanında olduğunu vurğulayıb, bütün sahələrdə, o cümlədən enerji sahəsində Türkiyə-Azərbaycan əməkdaşlığının bir çox önəmli strateji layihələrin icrasına imkan verdiyini qeyd edərək Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərini və TANAP layihəsini nümunə göstərib. Çıxışında Azərbaycanın müasir dövrdə neft və qaz ixrac edən ölkəyə çevrildiyini deyən Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" layihəsində dövlətimizin rolundan və əhəmiyyətindən ətraflı danışıb, neftdən və ondan əldə edilən gəlirlərdən düzgün istifadə olunmasının zəruriliyini vurğulayaraq bu sahədə Azərbaycan təcrübəsinin uğurlu olduğunu diqqətə çatdırıb.

Türkiyənin malik olduğu neft-qaz kəmərləri sistemindən, bu ölkənin enerjidən təhlükəsizlik və sülhün təmin olunması istiqamətində necə yararlanması ilə bağlı videoçarxın nümayişindən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək müasir dövrdə sülhün və rifahın təməli olan karbohidrogen resurslarının münaqişələrə səbəb olmasından təəssüfləndiyini söyləyib, Türkiyənin dünyanın enerji xəritəsində mühüm rol oynadığını, yeni layihələrin də bu mövqeyi gücləndirəcəyini bildirib.

Bu çərçivədə Rusiya ilə birgə həyata keçirilən "Türk axını" layihəsinin də əhəmiyyətini vurğulayan Rəcəb Tayyib Ərdoğan enerjinin sülh və təhlükəsizlik vasitəsinə çevrilməsi istiqamətində səylərin artırılmasının vacibliyini qeyd edib, 2050-ci ilə qədər enerjiyə olan tələbatın bu günlə müqayisədə iki dəfə artacağını, dünya enerji siyasətinin hazırda enerji qaynaqlarını şaxələndirməyə yönəldiyini diqqətə çatdırıb.

"Bölgəmizin sülhə və əməkdaşlığa ehtiyacı var", - deyən Rəcəb Tayyib Ərdoğan Körfəz böhranı da daxil olmaqla, Suriya və digər regionlarda baş verən qarşıdurmaların tezliklə həll olunmasının vacibliyini vurğulayaraq Avrasiyada enerji siyasətində mühüm oyunçulardan olan Türkiyənin enerji qaynaqlarının təhlükəsizliyinin təmin olunması, bu sahədə terror təşkilatlarının fəaliyyətinin qarşısının alınması istiqamətində bundan sonra da qərarlı siyasət yürüdəcəyini bəyan edib, Azərbaycan neftinin Aralıq dənizinə çatdırılmasını təmin edən Bakı-Tbilisi-Ceyhan, həmçinin Azərbaycan təbii qazının ölkəsinə və Avropaya nəqlini mümkün edən Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin inşasının uğurla başa çatdırıldığını, Cənub Qaz Dəhlizinin hazırda Türkiyə üçün yeni layihələr sırasında prioritet olduğunu vurğulayıb.

Sonda birgə foto çəkdirilib.

Dünya Neft Konqresinin əsas təşkilatçısı olan Dünya Neft Şurası neft və qaz sənayesi üzrə mühüm məsələlərin müzakirə olunduğu və vacib qərarların qəbul edildiyi beynəlxalq platformadır. Bitərəf və qeyri-siyasi qurum olan Dünya Neft Şurası bu sahədə elmi yeniliklərin tətbiqi, texnologiya və informasiya mübadiləsi, dünyanın neft ehtiyatlarından davamlı və hamının rifahına xidmət edəcək




*Xatirə şəkli*

şəkildə istifadə olunması istiqamətlərində fəaliyyət göstərir. Yetmiş üzv ölkəni birləşdirən Dünya Neft Şurası dünyada neft-qaz istehsalçıları və istehlakçılarının 96 faizini əhatə edir.

Səfər zamanı dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb, birgə şam ediblər. Görüşdə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu bildirilib. Həmçinin, ölkələrimiz arasında energetika sahəsində strateji əhəmiyyətli layihələrin uğurla icra olunduğu qeyd edilib, xüsusilə TANAP layihəsinin gələn il başa çatacağı məmnunluqla vurğulanıb.


*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüş*

Azərbaycan və Türkiyə prezidentləri ölkələrimizin hərbi sahədə əməkdaşlığının daha da genişləndirilməsi və möhkəmləndirilməsi haqqında söhbət ediblər. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib. Prezident İlham Əliyev son vaxtlar təmas xəttində Ermənistanın təxribatları və hərbi cinayətləri barədə Türkiyə Prezidentinə ətraflı məlumat verib. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin həmişə olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həllinə dəstək verdiyini vurğulayıb. Dövlət başçıları qeyd ediblər ki, Türkiyə və Azərbaycan bütün məsələlərlə bağlı bir-birinin yanındadırlar.

Prezident İlham Əliyevin İstanbulda ABŞ-ın dövlət katibi Reks Tillerson ilə də görüşü olub. Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi və enerji sahələrində uğurla inkişaf etdiyi qeyd olunub, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini bir daha bildirib, Ermənistanın təmas xəttində son hərbi təxribatı haqqında məlumat verib.



*ABŞ-ın dövlət katibi Reks Tillerson ilə görüş*

Dövlətimizin başçısı "Cənub Qaz Dəhlizi" layihəsinin icrası ilə bağlı görülən işlərdən danışıb. Reks Tillerson qeyd edib ki, ABŞ bu layihənin həyata keçirilməsinə bundan sonra da dəstək verəcək. ABŞ-ın dövlət katibi Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəaliyyətini, eyni zamanda, ölkəmizin bu əməliyyatlarda logistik və nəqliyyat dəhlizi rolunu yüksək qiymətləndirib.

Söhbət zamanı, həmçinin ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatlar, demokratiyanın inkişafı ilə bağlı məsələlər müzakirə edilib.



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviyaya rəsmi səfəri

**İyulun 16-18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Latviya Respublikasında rəsmi səfərdə olub.**

Latviya Prezidentinin iqamətgahında - "Riqa" qəsrində rəsmi qarşılanma mərasimindən sonra dövlətimizin başçısı İlham Əliyevin və Latviya Prezidenti Raymonds Veyonisin təkbətək görüşü olub. Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib, Azərbaycan Prezidentinin Latviyaya rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin hazırkı vəziyyəti, inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparılıb, bu əlaqələrin daha da genişləndirilməsi imkanları müzakirə edilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



*Təkbətək görüş*



Azərbaycan-Latviya sənədlərinin imzalanması

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib. Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu bildirilib, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində, o cümlədən Şərq-Qərb, Şimal-Cənub dəhlizlərində, Asiya ilə Avropa arasında yükdaşımalarda önəmli rolu qeyd edilib. Dövlətimizin başçısı Azərbaycanın beynəlxalq nəqliyyat əməkdaşlığı sahəsində gördüyü işlərdən danışıb.

Eyni zamanda, təhsil sahəsində əməkdaşlıq müzakirə edilərək bu sahədə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib, habelə Azərbaycan-Latviya münasibətlərinin Azərbaycan-Avropa İttifaqı münasibətləri çərçivəsində önəmi qeyd edilib. Hökumətlərarası Komissiyanın fəaliyyəti müzakirə olunaraq, ticarət dövriyyəsinin artırılması üçün imkanların araşdırılması, ixrac-idxal potensialının müəyyənləşdirilməsi, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq məsələlərindən danışılıb.

Prezident Raymonds Veyonis vurğulayıb ki, Latviya Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib və bundan sonra da dəstəkləyəcək. Latviya dövlətinin başçısı ölkəsinin gələcəkdə də Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının möhkəmləndirilməsi işinə töhfə verəcəyini vurğulayıb.

Görüş başa çatdıqdan sonra Azərbaycan və Latviya



Latviya Seyminin sədri İnara Murnietse ilə görüş




*Latviya-Azərbaycan biznes forumu*

prezidentlərinin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Prezident İlham Əliyev və Prezident Raymonds Veyonis "Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə"ni imzalayıblar. Həmçinin, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Latviya Respublikasının Nəqliyyat Nazirliyi arasında beynəlxalq kombinə edilmiş yükdaşımaları haqqında Anlaşma Memorandumu, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Latviya Respublikasının İqtisadiyyat Nazirliyi arasında tikintidə təhlükəsizliyə dövlət nəzarəti sahəsində əməkdaşlıq haqqında Saziş, iki ölkənin hökumətləri arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş imzalanıb.

Azərbaycan və Latviya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər.

Səfər zamanı Prezident İlham Əliyev və Latviya Prezidenti Raymonds Veyonis Riqa şəhərindəki "Azadlıq" abidəsini ziyarət edib, abidənin önünə əklil qoyub, Latviyanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini yad ediblər.

Dövlətimizin başçısı Latviyanın Baş naziri Maris Kuçinskis ilə nahar edib, həmçinin Latviya Seymində olub. Seymdə olarkən Prezident İlham Əliyev əvvəlcə iclas zalı ilə tanış olub, sonra Seymin sədri İnara Murnietse ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğu, bu əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərə böyük töhfə verdiyi vurğulanıb. Həmçinin, ölkələrimizin iqtisadi əlaqələrinin genişlənməsi üçün də yaxşı imkanların olduğu qeyd olunub.

Latviya Seyminin sədri Avropa İttifaqında Azərbaycanı daim dəstəklədiklərini söyləyib, ölkəsinin mövqeyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməsindən ibarət olduğunu qeyd edərək cəbhə xəttində iki azərbaycanlı mülki şəxsin - nənə və nəvənin qətli ilə nəticələnən son hadisədən təəssüfləndiyini bildirib.

Səfər çərçivəsində iyulun 17-də Riqada Latviya-Azərbaycan biznes forumu keçirilib. Forumun açılış mərasimində iştirak edən prezidentlər İlham Əliyev və Raymonds Veyonis çıxış edib, sonra biznes forum işini müzakirələrlə davam etdirib.

Azərbaycanın İqtisadiyyat Nazirliyinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Latviyanın İnvestisiya və İnkişaf Agentliyinin təşkil etdiyi biznes forumda hər iki tərəfdən 120-dən çox şirkəti təmsil edən 200-dək sahibkar iştirak edib.

Latviya-Azərbaycan biznes forumunda ölkələrimiz arasında iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə dair təkliflər irəli sürülüb.

Həmin gün Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin adından İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib. Dövlət başçıları rəsmi ziyafətdə çıxış ediblər.

İyulun 18-də Prezident İlham Əliyevin Latviya Respublikasına rəsmi səfəri başa çatıb.

# Azərbaycan Prezidenti İlham Əliyev Rusiyada işgüzar səfərdə olub



**İyulun 21-22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasında işgüzar səfərdə olub.**

Dövlətimzin başçısı Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşüb.

Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan Rusiya Prezidenti Vladimir Putin deyib:

- Hörmətli İlham Heydər oğlu. Sizi bu dəfə Soçidə görməyimə çox şadam. İndicə bizim yeni "Sirius" təhsil mərkəzinin uşaqları ilə görüşdüm. Bu layihənin inkişafından çox şad oldum və Sizə böyük məmnuniyyətlə bu barədə danışacağam. Sizinlə həm bizim ikitərəfli münasibətlərimiz, həm də regionda yaranan vəziyyət barədə danışmaq imkanından məmnunam. Regiondakı vəziyyət sadə deyil. Ümid edirəm ki, bizim bugünkü görüşümüz də bütün mürəkkəb problemlərin həlli yollarını tapmağa imkan yaradacaq və əlbəttə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin necə inkişaf etməsindən də danışacağıq. Bizim böyük həcmdə işlərimiz və gələcək üçün çoxlu birgə planlarımız var. Sizinlə görüşmək və bütün bu istiqamətlər üzrə danışmaq imkanına şadam.

***

Azərbaycan Prezidenti İlham Əliyev deyib:

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. Mən də bizim yeni görüşümüzə çox şadam. Biz mütəmadi olaraq görüşürük. Bu görüşlər çox uğurla davam edən ikitərəfli münasibətlərimizin inkişafına yaxşı impuls verir. Biz münasibətlərimizin səviyyəsindən, yüksək səviyyəsindən məmnunuq. Siyasi, ticari-iqtisadi, humanitar sahələrdə fəal əməkdaşlıq edirik. Nəqliyyat və energetika sahələrində yaxşı perspektivlər var. Yəni, bizim münasibətlərimiz çoxşaxəlidir, həyatımızın praktiki olaraq bütün sahələrini əhatə edir. Əlbəttə ki, vacib məsələlər - regional, dünya siyasəti, ikitərəfli münasibətlər və bizim regionda təhlükəsizliyin möhkəmləndirilməsi məsələləri üzrə vaxtaşırı məsləhətləşmələrə ehtiyac var.

Ona görə bir daha Sizi görməyə çox şadam. Əminəm ki, bu görüşümüz də dostluq münasibətlərimizin inkişafına yaxşı impuls verəcək.

***

Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğunu bir daha təsdiqləyib, ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini vurğulayıblar. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib, beynəlxalq və regional problematika ətrafında fikir mübadiləsi aparılıb. Hər iki dövlət başçısı Rusiya-Azərbaycan dostluq və strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildiriblər.

İyulun 22-də Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatıb.

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib



**İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

İclası giriş nitqi ilə açan dövlətimizin başçısı Azərbaycanın 2017-ci ilin birinci yarısında uğurla inkişaf etdiyini, dünyada çox təhlükəli meyillərin daha da güclənməsi, müharibələr, münaqişələr, qanlı toqquşmalar, böhranlar fonunda Azərbaycanda sabitliyin möhkəmləndiyini vurğulayıb.

Bu ilin altı ayında beynəlxalq əlaqələrimizin daha da fəallaşdığını söyləyən Prezident İlham Əliyev özünün 10 xarici - Avropa və müsəlman ölkələrinə, həmçinin doqquz xarici dövlət və hökumət başçısının Azərbaycana səfərini, habelə ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbirin, V Bakı Qlobal, IV Mədəniyyətlərarası Dialoq forumlarının, IV İslam Həmrəyliyi Oyunlarının, 24-cü Xəzər neft-qaz sərgi və konfransının keçirildiyini diqqətə çatdırıb və bunun Azərbaycanın dünyadakı rolunu, inkişafını, ölkəmizə beynəlxalq aləmin, aparıcı dövlətlərin hörmətini, rəğbətini göstərdiyini vurğulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan ölkə başçısı bu istiqamətdə heç bir nəticənin əldə edilmədiyini bildirib, bu il qondarma separatçı rejimin Ermənistanın siyasi rəhbərliyinin təhriki ilə Dağlıq Qarabağda keçirdiyi növbəti qondarma, qanunsuz "referendum"un tanınmamasının Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu bir daha təsdiq etdiyini vurğulayıb. Həmçinin aprel hadisələrindən sonra Ermənistanın danışıqların bərpa edilməsi üçün bir neçə şərt qoymasına baxmayaraq, heç bir şərtin Azərbaycan tərəfindən qəbul edilmədən danışıqlar prosesinin qeyd-şərtsiz bərpa edildiyini söyləyib.

Lakin Ermənistanın danışıqları pozmaq üçün təxribat törətməyə həmişə çalışdığını bildirən Azərbaycan Prezidenti ötən ay yenidən hərbi təxribat törətdiyini və bir əsgərimizin həlak olduğunu, buna cavab olaraq Azərbaycan Ordusunun zərbəsi nəticəsində bir çox işğalçıların məhv edildiyini vurğulayıb, bu ayın 4-də Füzuli rayonunun Alxanlı kəndində baş vermiş növbəti təxribatı isə hərbi cinayət, erməni faşizminin təzahürü adlandırıb, bildirib ki, bu, misli görünməmiş vəhşilikdir. Balaca Zəhranın və onun nənəsinin öldürülməsi erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi.

Azərbaycanın ərazi bütövlüyünün heç vaxt danışıqlar mövzusu olmadığını və olmayacağını əminliklə bəyan edən dövlətimizin başçısı bu il də hərbi potensialımızın gücləndirilməsinə böyük

diqqət göstərildiyini vurğulayıb, məcburi köçkünlərin problemlərinin həllinə toxunaraq Cocuq Mərcanlı qəsəbəsinın açılmasını şanlı tariximizə qızıl hərflərlə yazılan hadisə adlandırıb, həmçinin köçkünlər üçün paytaxtda və bölgələrdə digər layihələrin icra edildiyini, yeni şəhərciklərin tikildiyini bildirib.

Sosial məsələlərin həllinin daim diqqət mərkəzində olduğunu söyləyən ölkə rəhbəri beş milyondan çox insanın bu il pulsuz müayinədən keçdiyini, sosial infrastruktur obyektlərinin tikintisini, birinci altı ayda 26 tibb müəssisəsinin, 20-dən çox modul tipli məktəbin tikildiyini bildirib. Həmçinin iqtisadi göstəricilərə toxunaraq qeyri-neft iqtisadiyyatımızın 1,7 faiz artdığını, qeyri-neft sənayesində artımın 4,4 faiz olduğunu, ölkə iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulduğunu, valyuta ehtiyatlarımızın artaraq bu günə 40,6 milyard dollar təşkil etdiyini, ilin əvvəlindən bu günə qədər valyuta ehtiyatlarımızın təxminən 3 milyard dollar artdığını, 101 mini daimi olmaqla 122 min yeni iş yerinin açıldığını vurğulayıb. Dövlətimizin başçısı xarici ticarət dövriyyəsinin göstəricilərinin də müsbət olduğunu bildirərək ixracın 36 faiz, qeyri-neft ixracın 27 faiz artdığını, idxalın isə 15 faiz azaldığını, kənd təsərrüfatının da 2,2 faiz artdığını qeyd edib, bu göstəricilərin dünya miqyasında bu gün ən gözəl göstəricilər olduğunu vurğulayıb.

Sonra ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov, "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitqi söyləyərək bildirib ki, uğurlu iqtisadi islahatları və iqtisadi siyasətimizi davam etdirmək üçün maliyyə və iqtisadi sabitlik olmalı, süni qiymət artımına yol verilməməlidir. Sənaye istehsalı, kənd təsərrüfatının inkişafı istiqamətində çox ciddi addımlar atıldığını, sənaye parklarının, aqroparkların yaradılması prosesinin uğurla getdiyini diqqətə çatdırıb. Pambıqçılığın, baramaçılığın, ipəkçiliyin, tütünçülüyün, çayçılığın, çəltikçiliyin, zeytunçuluğun, fındıqçılığın, kartofçuluğun, heyvandarlığın, taxılçılığın və digər sahələrin inkişafı üzrə mühüm addımların atıldığını qeyd edib, aşağı məhsuldarlığı olan rayonların adlarını çəkərək zəruri tapşırıqlar verib.

Dövlətimizin başçısı, həmçinin meliorativ tədbirlərin təşkili, suvarma işlərinin maksimum dərəcədə yüksək səviyyədə aparılması, subartezian quyularının qazılması ilə bağlı aidiyyəti göstərişlər verib, inşaat sektorunda canlanma müşahidə edildiyini bildirib, daxili sərmayəni cəlb etməyin zəruriliyini qeyd edərək özəl sərmayənin cəlb edilməsində mərkəzi icra orqanları ilə yanaşı, yerli icra orqanlarının da məsuliyyət daşıdığını vurğulayıb və bildirib ki, bölgələrdə investisiyaları cəlb etmək üçün icra başçıları gərək fəal olsunlar. Bəzi yerlərdə bu fəallıq, nəticələr var, amma bəzi yerlərdə bu fəallıq yoxdur, biganəlik var. Bəzi hallarda investorlara kömək etmək əvəzinə problemlər yaradılır. Bunlara son qoyulmalıdır.

Dövlət məmurlarının davranış normaları ilə bağlı bir daha fikirlərini bildirən ölkə başçısı diqqətə çatdırıb ki, məmur təvazökar olmalı, xalqa xidmət etməli, xalqla bir yerdə olmalı, özünü xalqdan yuxarı tutmamalıdır. Məmur özü və onun ailə üzvləri təkəbbürlü davranmamalıdırlar. Ancaq buna baxmayaraq, bəzən hələ də görürük ki, həm məmurlar özlərini apara bilmirlər, kobud səhvlər buraxırlar və həm də ailə üzvləri hesab edirlər ki, onların xüsusi imtiyazı var. Azərbaycanda heç kimin heç bir imtiyazı yoxdur. Mən demişəm ki, o dövlət məmuru öz ailə üzvlərini idarə edə bilmirsə vəzifədən çıxarılacaq və belə də oldu. Azərbaycanda xuliqanlıqla, özbaşınalıqla məşğul olanlar cəzalandırılır və cəzalandırılmalıdır. Heç kimə heç bir güzəşt edilmir və mənim son qərarlarım onu bir daha təsdiqləyir, hamı nəticə çıxarsın.

Prezident İlham Əliyev qazlaşdırmanın artıq 93 faizə çatdığını, elektrik təsərrüfatının yeniləndiyini, kənd yolları, içməli su, yol infrastrukturu layihələrinin icra edildiyini söyləyib, bu istiqamətdə işlərin uğurla davam etdirilməsinin vacibliyini önə çəkib, həmçinin qeyri-neft sektorunun ixracının coğrafiyasınının genişləndirilməsi ilə bağlı tapşırıqlarını verib.

Bildirib ki, sahibkarlara 6 ayda güzəştli şərtlərlə 63 milyon manat kredit verilibdir. Ümumiyyətlə, bütövlükdə güzəştli şərtlərlə iki milyard manat kredit verilib. İnvestisiya təşviqi mexanizmi özünü tam doğruldub və məhz bu təşəbbüsə görə Azərbaycana 1,6 milyard manat dəyərində investisiya qoyulub.

Dövlətimizin başçısı turizmin inkişafından, yeni təşəbbüs olan özünüməşğulluq proqramının əhəmiyyətindən danışıb, bütün sahələrində müsbət dinamikanın daha da artırılması üçün verdiyi tapşırıqların yerinə yetirilməsini vurğulayıb.

# Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələri ədliyyə və daxili işlər nazirlərinin görüşü keçirilib





**İyulun 7-də Estoniyanın Avropa İttifaqında sədrliyi çərçivəsində Tallin şəhərində Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələrinin ədliyyə və daxili işlər nazirlərinin görüşü keçirilib.**

Tədbirdə ölkəmizi ədliyyə naziri Fikrət Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə daxili işlər nazirinin müavini İsmət Əliyev və Ədliyyə Nazirliyi Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Əbilov daxil olunub.

Avropa İttifaqının yüksək rəsmiləri, üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələri nazirlərinin iştirakı ilə keçirilən görüşdə kibercinayətkarlığa və korrupsiyaya qarşı mübarizə kimi aktual məsələlər, bu sahədə aparılan islahatlar və müsbət təcrübələr müzakirə olunub.

Tədbirdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri F.Məmmədov kibercinayətkarlıqla mübarizədə ölkəmizin təcrübəsi, o cümlədən qanunvericilik və institusional tədbirlərlə bölüşüb, transmilli xarakter daşıyan bu kimi cinayətlərlə mübarizədə səmərəli beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Kiber hücumların tamahla yanaşı, bir çox hallarda siyasi məqsədlər daşımasının daha böyük təhlükə doğurduğunu qeyd edərək, Azərbaycanın da bundan əziyyət çəkdiyini və erməni hakerlərinin hücumları ilə qarşılaşdığını bildirib.

Gündəlikdə duran ikinci məsələ ilə bağlı çıxış edən nazir dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə korrupsiyaya qarşı aparılan qəti mübarizə tədbirləri, Azərbaycan brendi olan və 16 milyon müraciət edənlərin bəhrələndiyi "ASAN xidmət"in yüksək vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti, habelə Baş prokuror yanında geniş səlahiyyətlərə malik olan antikorrupsiya idarəsi, eləcə də bu sahədə mühüm rol oynayan məhkəmə sisteminin müasirləşdirilməsi barədə məlumat verib, ölkəmizin bu bəla ilə qlobal mübarizənin fəal iştirakçısı olduğunu qeyd edib.

Tədbirdə, həmçinin məhkəmə-hüquq islahatlarına toxunularaq Avropa dövlətlərinin bu sahədə qarşılaşdıqları problemlərdən bəhs olunub, məhkəmə sistemlərinin təkmilləşdirilməsinin, əməkdaşlığın genişləndirilməsinin, yaxşı təcrübələrin mübadiləsinin əhəmiyyəti qeyd olunub, bu məqsədlə mütəmadi toplantıların keçirilməsi məqsədəmüvafiq bilinib.

Çıxışlarda, ölkəmizin ədliyyə naziri tədbir iştirakçılarının diqqətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrinə cəlb edərək, iyulun 4-də Ermənistan silahlı qüvvələrinin ölkəmizin mülki əhalisinə və mülki obyektlərinə hərbi təxribatı nəticəsində azyaşlı Zəhra Quliyevanın və nənəsi Sahibə Quliyevanın qətlə yetirildiyini, daha bir mülki şəxsin ağır yaralandığını xüsusi vurğulayıb. Bildirilib ki, beynəlxalq ictimaiyyət bu cür qəddarlıq və qeyri-insani akta biganə qalmamalı, BMT Təhlükəsizlik Şurasının




*Xatirə şəkli*

müvafiq dörd qətnaməsinə əsasən Azərbaycanın işğal olunmuş ərazilərinin qeyd-şərtsiz azad olunması, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması üçün beynəlxalq təşkilatlar və dünya dövlətləri səylərini əsirgəməməlidirlər. Belə mühüm tribunadan Azərbaycan həqiqətlərinin səslənməsi erməni nümayəndə heyətinin təşvişinə və narahatlığına səbəb olub.



*Estoniyanın ədliyyə naziri Urmas Reinsalu ilə görüş*

Bununla bağlı Azərbaycan tərəfi müvafiq bəyanatı nümayəndə heyətləri arasında yayıb, keçirilən bütün görüşlərdə və danışıqlarda həmsöhbətlərin diqqəti bu məsələyə cəlb olunub.

Səfər zamanı F.Məmmədov və Estoniyanın ədliyyə naziri Urmas Reinsalu ilə ikitərəfli görüş keçirilib. Görüşdə iki ölkə arasında hüquqi sahədə əməkdaşlığın inkişafı üçün yaxşı perspektivlərin olduğu vurğulanıb, Estoniya tərəfi qarşılıqlı fəaliyyətin genişləndirilməsi ilə bağlı niyyətini ifadə edib.

Eyni zamanda, Avropa İttifaqının rəsmiləri, habelə bir sıra dövlətlərin, o cümlədən Bolqarıstan, Belarus, Ukrayna və Gürcüstanın ədliyyə nazirləri ilə görüşlər keçirilərək əməkdaşlığa dair müzakirələr aparılıb.

***Ədliyyə naziri Fikrət Məmmədov tədbirdə kibercinayətkarlığa və korrupsiyaya qarşı mübarizə mövzuları üzrə çıxışlar etmişdir. Maraqla qarşılanmış həmin çıxışların Azərbaycan dilinə tərcümə olunmuş mətnləri oxucularımızın diqqətinə təqdim olunur.***




**Hörmətli sədr,**
**Xanımlar və cənablar,**

İlk öncə, belə bir mühüm görüşü keçirmək təşəbbüsünə və onun yüksək səviyyədə təşkilinə görə Estoniya Hökumətinə minnətdarlığımı bildirmək istərdim.

**Hörmətli həmkarlar,**

Kibercinayətkarlıq bu gün həddindən artıq geniş yayılmışdır: hər gün dünyada bir milyondan çox insan onun qurbanlarına çevrilir.

Kredit kartlarından pul oğurluğu, uşaq pornoqrafiyası saytlarının yaradılması, kompüter virusları, zorakılığın və irqi dözümsüzlüyün təbliği, əldə düzəltmə partlayıcı qurğuların hazırlanması təlimatlarının yayılması - bütün bunlar bu gün internet vasitəsilə törədilən cinayətlərin yalnız kiçik bir hissəsidir.

Bu cinayətlərin ən son bariz nümunələri dünyada yüz minlərlə kompüterlərin yoluxduğu "Wannacry" və "Petya" viruslarına məruz qalmasıdır. Bu gün heç kəs kiberhücumdan sığortalanmayıb, xəstəxanalar, aeroportlar, banklar və s. ilə yanaşı, dövlət strukturları da, o cümlədən diplomatik missiyalar onun qurbanına çevrilmişdir.

Transmilli cinayətkarlığın bu yeni təhlükəli növü ilə mübarizə aparmaq üçün kompleks yanaşma tətbiq olunmaqla qanunvericilik, inzibati, institusional və digər tədbirlər həyata keçirilməlidir.

Azərbaycan dövləti məhz bu yolla gedərək, ilk növbədə, bu bəla ilə mübarizəyə dair qanunvericilik bazası yaradılmış, o cümlədən Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyası ratifikasiya olunmuş, Cinayət Məcəlləsinə "Kibercinayətkarlıq" yeni bölməsi daxil edilmişdir. Bundan əlavə, informasiya cəmiyyətinin inkişafına dair beş illik Milli Strategiya işlənib hazırlanmış və onun səmərəli implementasiyası üçün hərtərəfli Dövlət Proqramı qəbul olunmuşdur. Burada informasiya təhlükəsizliyinin təmin olunması üçün infrastrukturun yaradılması, dövlət orqanlarının vətəndaş cəmiyyəti institutları, xüsusilə internet provayderləri ilə əlaqələrin gücləndirilməsi, elektron təhlükələr barədə maarifləndirmənin yüksəldilməsi və digər bu kimi tədbirlər nəzərdə tutulmuşdur.

İnstitusional tədbirlərə gəldikdə, Elektron təhlükəsizlik və Kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərinin yaradılmasını qeyd etmək istərdim. Həmçinin, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizlik Xidmətinin tərkibində kibercinayətkarlıqla mübarizə ilə bağlı idarələr səmərəli fəaliyyət göstərir. Kompüter texnologiyalarının sürətli inkişafı nəzərə alınaraq, həmin qurumların əməkdaşları mütəmadi təlimlərə cəlb olunurlar. Digər beynəlxalq təşkilatlarla yanaşı, Avropa İttifaqı ilə bu sahədə səmərəli qarşılıqlı fəaliyyəti xüsusilə qeyd etmək istərdim. Belə ki, Aİ Şərq Tərəfdaşlığı çərçivəsində polis əməkdaşlıq proqramı uğurla həyata keçirilir.

Göründüyü kimi, kibercinayətkarlıq sərhəd tanımır və ona qarşı mübarizə transmilli məsələdir. Buna görə də hüquq mühafizə orqanlarımız bütün dünya üzrə beynəlxalq əlaqələrini daim genişləndirir. 40-dan çox ölkə ilə kibercinayətkarlığa qarşı mübarizəyə dair yüz sənəd imzalanıb.

Bundan başqa, Budapeşt Konvensiyasına əsasən ölkəmizdə kibercinayətkarlıqla bağlı istintaqın aparılmasına və sübutların elektron formada toplanmasına təxirəsalınmadan köməklik göstərilməsi məqsədilə 24 saat və həftənin 7 günü fəaliyyət göstərən xüsusi Əlaqə mərkəzi yaradılmışdır.

Kibercinayətkarlıqla səmərəli mübarizə aparmaq üçün, eyni zamanda, bu işlər üzrə vaxtında hüquqi yardımın göstərilməsi və ekstradisiyanın həyata keçirilməsi də mühüm əhəmiyyət kəsb edir. Məsələn, Azərbaycan Konvensiyaya əsasən öz öhdəliklərini vicdanla yerinə yetirərək Almaniyanın sorğusu əsasında beynəlxalq kibercinayətkar qrupun üzvünü aşkar edərək zərərsizləşdirmişdir.

Biz həmçinin, Böyük Britaniyadan üç kibercinayətkarın, bu yaxınlarda isə İspaniyadan sorğumuz

təmin edilməklə bank hesablarından 1.5 mln. avro oğurlamış beynəlxalq kibercinayətkar qrupun daha bir üzvünün ekstradisiyasına nail olmuşuq.

Lakin bütün ölkələr, o cümlədən təəssüflə qeyd etməliyəm ki, Avropa İttifaqının bəzi üzv dövlətləri tərəfindən konvension öhdəliklərə eyni vicdanlı münasibət bəslənilmir.

Beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılması məqsədilə, həmçinin beynəlxalq təşkilatların təşəbbüslərində fəal iştirak edirik. Belə ki, Beynəlxalq Prokurorlar Assosiasiyası çərçivəsində prokurorlar üçün Qlobal Elektron Cinayət Şəbəkəsi (GPEN) uğurla fəaliyyət göstərir. Azərbaycanın fəal istifadə etdiyi bu şəbəkə beynəlxalq əməkdaşlıq, həmçinin videkonfrans və s. üsullarla keçirilən treninqlər üçün əla platformadır.

Təəssüf edirəm ki, təcrübəyə əsasən bu tədbirlər xarici kiber hücumlara tab gətirmək üçün heç də həmişə kifayət etmir. Azərbaycan da belə hücumlara, xüsusilə Ermənistan tərəfindən tez-tez məruz qalır. Ən dəhşətlisi isə, kiber hücumların tamahla yanaşı, siyasi məqsədlər güdməsidir, onlar dövlət qurumlarını və bütövlükdə dövlətləri qəsdən yalan ola-ola nüfuzdan salmağa, gərginlik yaratmağa və ictimai narazılığı alovlandırmağa yönəlib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi şəraitində bizim üçün bu, olduqca təhlükəlidir. Münaqişə nəticəsində torpaqlarımızın 20 faizi işğal olunub və Ermənistan tərəfi Azərbaycan ərazilərinin dərhal azad olunmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin, habelə Avropa İttifaqının, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının və digər nüfuzlu beynəlxalq təşkilatların müvafiq qətnamələrini və tövsiyələrini kobudcasına pozmaqda davam edir.

Bu münaqişənin mülki əhali arasında çoxsaylı insan tələfatı ilə müşayiət olunması daha dəhşətlidir. Bir neçə gün öncə, iyulun 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikası Füzuli rayonunun mülki əhalisinin yaşayış massivinə məqsədyönlü şəkildə və qəsdən minaatanlardan və qumbaraatanlardan atəşə tutulması nəticəsində 2 yaşlı uşaq Zəhra Quliyeva və onun nənəsi Sahibə Allahverdiyeva qətlə yetirilib, daha bir mülki şəxs Səlminaz Quliyeva ağır yaralanıb. Bununla da insan hüquqları sahəsində bir sıra beynəlxalq-hüquqi sənədlərin, xüsusilə Müharibə zamanı mülki əhalinin qorunmasına dair Cenevrə və BMT-nin Uşaq hüquqları haqqında konvensiyalarının müddəaları kobud şəkildə pozulub.

Beynəlxalq ictimaiyyət mülki əhaliyə qarşı törədilmiş bu cür qəddarlıq, amansızlıq və qeyri-insani hadisələrə biganə qalmamalıdır.

Münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk Qrupu bu faciəli hadisəni münaqişənin sülh yolu ilə nizamlanması üzrə danışıqlar prosesini poza biləcək təxribat adlandırıb.

Zənnimcə, hamı razılaşar ki, bu cür faciələrin qarşısını almaq üçün münaqişənin tezliklə və sülh yolu ilə həlli, Ermənistan silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, yüz minlərlə məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması üçün beynəlxalq təşkilatlar və dünya dövlətləri səylərini artırmalı və əllərindən gələni əsirgəməməlidirlər.

Bununla əlaqədar, foto-sənədlərlə müşayiət olunan xüsusi bəyanat hazırlanmış və diqqətinizə təqdim olunur.

*Diqqətinizə görə minnətdaram.*

**Hörmətli həmkarlar,**

İlk növbədə, icazə verin belə bir aktual məsələnin iclasımızın gündəliyinə çıxarılmasına görə minnətdarlığımı bildirim.

Korrupsiyanın qlobal məhvedici təsiri heç kimdə şübhə doğurmur, o, qanunun aliliyini, iqtisadiyyatı və bütövlükdə cəmiyyəti sarsıdır.

Bu qlobal bəla ilə səmərəli mübarizə üçün ilk öncə, güclü siyasi iradə, qarşıda duran vəzifələri düzgün müəyyən etmək və onların həlli yollarını dəqiq anlamaq lazımdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən antikorrupsiya siyasətinin həyata keçirilməsi zamanı məhz bu prioritetlər müəyyən edilib.

Təsadüfi deyil ki, Azərbaycan BMT-nin Korrupsiya əleyhinə Konvensiyasını ratifikasiya edən ilk dövlətlərdən biri olub, həmçinin, ölkəmiz Avropa Şurasının bütün antikorrupsiya konvensiyalarına qoşulub.

Ölkəmizdə hakimiyyətin hər üç qolunun nümayəndələrindən ibarət Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyası yaradılıb və o, milli antikorrupsiya siyasətini hazırlayan və bu sahədə bütün dövlət və digər qurumların fəaliyyətini əlaqələndirən strateji orqandır.

Qeyd etmək istərdim ki, Korrupsiyaya qarşı strategiyanın və Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət planlarının uğurla icrası nəticəsində Davos Dünya İqtisadi Forumunun hesabatında ölkəmiz rəqabətqabiliyyətliliyinə görə dünya

ölkələri sırasında 38-ci, Doing Business hesabatında "Biznesə başlama" meyarı üzrə 7-ci yerə yüksəlib.

Hazırda dövlət başçısının Sərəncamına əsasən korrupsiyaya qarşı mübarizəyə dair yeni proqram işlənib hazırlanır.

BMT-nin 2015-ci ildən sonra inkişaf sahəsində gələcək tədbirlər haqqında hesabatında şəffaflıq korrupsiyanın qarşısının alınması üçün ən möhkəm vasitələrdən biri kimi göstərilir. Bu təəccüblü deyil, bildiyimiz kimi, korrupsiyanın gizlənməsi üçün qaranlıq köşələrə ehtiyacı vardır.

Antikorrupsiya sahəsində institusional yeniliklə bölüşmək istərdim. Ölkə Prezidentinin təşəbbüsü ilə ASAN xidmət təsis edilib. Bizim dildə bu abbrreviatura, həmçinin "asan/sadə" deməkdir. Xidmətin əsas prinsipləri səmərəlilik, şəffaflıq, nəzakət, məsuliyyət, etik davranış qaydalarına riayət və rahatlıqdır. Onun məqsədi vətəndaşların hüquqi yardım almasının asanlaşdırılması, şəffaflığın təmin olunması, korrupsiya hallarının aradan qaldırılmasıdır.

"Bir qapı" prinsipini tətbiq etməklə, 230 müxtəlif, o cümlədən elektron xidmət göstərən 35 qurum bir binada yerləşir. Artıq 11 belə mərkəz fəaliyyət göstərir. Gələcəkdə bu xidmətin şəbəkəsi bütün ölkəni əhatə edəcəkdir. Eyni zamanda, səyyar ASAN xidmət mərkəzləri funksiyasını yerinə yetirən xüsusi avtobuslar, hətta qatar regionları dövr edir. Ölkənin 10 milyon əhalisi olduğu halda, bu mərkəzlərə 16 milyon müraciət edilib və bu zaman müştəri məmnuniyyətinin səviyyəsi 98 faiz təşkil edib.

2015-ci ildə ASAN dövlət xidmətlərinin inkişafına verdiyi töhfəyə görə BMT-nin mükafatına layiq görülüb və onun təcrübəsinin geniş yayılması tövsiyə edilib.

Bu instutisional tədbirlər antikorrupsiya hüquq mühafizə fəaliyyətinin rolunu azaltmır. Ölkəmizdə ixtisaslaşmış Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə baş idarəsi fəaliyyət göstərir. Bu idarə kifayət qədər geniş səlahiyyətlərə, əməliyyatçı, iqtisadçı və digər peşə sahiblərini əhatə edən böyük işçi heyətinə malikdir. Onların saflığının təmin edilməsi üçün çox yüksək məvacib nəzərdə tutulub. Qeyd etmək istərdim ki, beynəlxalq təşkilatlar, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) bu modeli yaxşı təcrübə kimi qiymətləndirib.

Məlumdur ki, səmərəli məhkəmə sistemi korrupsiya qarşısında ən ciddi maneədir. Burada da bölüşə biləcəklərimiz var. Məhkəmə sisteminin müstəqilliyinin və səmərəliliyinin artırılması üzrə kompleks tədbirlər çərçivəsində hakimlərin ən şəffaf prosedurlarla seçimi işlənib hazırlanıb. Seçim proseduru çox mərhələlidir - test, yazılı və şifahi imtahanlardan, beynəlxalq ekspertlərin iştirakı ilə ölkədə və xaricdə uzunmüddətli treninqlərdən və məhkəmələrdə stajkeçmədən ibarətdir. İmtahanlar internetdə canlı yayımlanır. Avropa Şurası və Avropa İttifaqı bu proseduru öyrənərək onu müsbət təcrübənin maraqlı modeli kimi qiymətləndirmişdir.

Həmçinin, Dünya Bankı ilə birgə qabaqcıl İKT-lərlə təchiz olunmuş yeni müasir məhkəmə infrastrukturu yaradırıq. Yeni məhkəmə binaları inzibati və ictimai zonalara bölünür, bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və korrupsiya riski minimuma endirilir. Bu işdə maliyyələşmənin də böyük rolu var. Son illər Azərbaycanda məhkəmələrin büdcələri və hakimlərin əmək haqları dəfələrlə artırılıb və onların maaşlarının azaldılması qanunla qadağan olunub.

Azərbaycan həmçinin, beynəlxalq səviyyədə səylərin konsolidasiyasına mühüm önəm verir. Misal üçün, Beynəlxalq Prokurorlar Assosiasiyası çərçivəsində bütün dünya prokurorları üçün antikorrupsiya internet şəbəkəsi məhz ölkəmiz tərəfindən aparılır. Eyni zamanda, Azərbaycan 140 ölkəni birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının həmtəsisçi olmaqla bu nüfuzlu təşkilatda vitse-prezident səviyyəsində təmsil olunur və bu bizə İcraiyyə Komitəsində BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi (UNODC), Avropa Komissiyasının Dələduzluqla Mübarizə İdarəsi (OLAF), Beynəlxalq Antikorrupsiya Akademiyası, Beynəlxalq Prokurorlar Assosiasiyası və digər mötəbər beynəlxalq təşkilatların rəhbərləri ilə sıx əməkdaşlıq etməyə imkan verir.

Əminəm ki, qeyd olunan bütün istiqamətlərdə işi davam etdirərək biz yaxşı nəticələrə nail ola bilərik.

Bu cür görüşlərin hamı üçün qarşılıqlı faydasını qeyd etmək istərdim, çünki bu zaman müzakirə olunan məsələlərdə yeni və maraqlı yanaşmalar meydana gəlir.

Sonda bir daha bu təşəbbüsə görə təşəkkürümü bildirirəm.

*Diqqətinizə görə minnətdaram.*

# Ədliyyə Nazirliyinin kollegiya iclası keçirilib











**İyulun 27-də ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş nazirliyin kollegiya iclasında dövlət başçısının "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülmüş işlər müzakirə olunub.**

Tədbirdə çıxış edən nazir ümummilli lider Heydər Əliyevin siyasi kursunun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsini, respublikamızın hərtərəfli inkişafının, sabitliyin və təhlükəsizliyin təmin olunmasını vurğulayıb, demokratik hüquqi dövlət quruculuğunda, xüsusilə məhkəmə-hüquq islahatlarında nailiyyətləri qeyd edib.

Bildirilib ki, ölkəmizdə aparılan hüquqi islahatlar çərçivəsində vətəndaş haqlarının, o cümlədən azadlıq hüququnun qorunması, cəzaların icrası işinin səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə islahatların yeni mərhələdə aparılmasına əlavə təkan verən dövlət başçısının qeyd olunan proqram xarakterli Sərəncamının icrası üzrə bir çox tədbirlər görülüb.

Belə ki, cəzaların humanistləşdirilməsi, cinayətlərin dekriminallaşdırılması, həbs qətimkan tədbirinin seçilməsi əsaslarının məhdudlaşdırılması və həbsə alternativ qətimkan tədbirlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı müvafiq təkliflər hazırlanaraq dövlət başçısına təqdim olunub. Probasiya xidmətinin işinin təşkili və elektron nəzarət vasitələrinin istifadəsi ilə bağlı beynəlxalq təcrübə öyrənilib, "elektron qolbaq"ın nümunələri pilot qaydada sınaqdan keçirilib və hazırda ölkəmiz üçün daha uyğun modelin müəyyən olunması üzrə işlər yekunlaşdırılır.

Eyni zamanda penitensiar infrastrukturun müasirləşdirilməsi, bu xidmətin peşəkar kadr korpusunun formalaşdırılması, cəzaçəkmə müəssisələrində istehsalat sahələrinin genişləndirilməsi üzrə əməli tədbirlər görülüb.

İctimai işlər və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan digər cəzaların səmərəli icrası məqsədilə yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı əməkdaşlıq qurulub.

Qeyd olunub ki, sərəncamda verilmiş tapşırıq və tövsiyələrin icrası nəticəsində ötən ilin birinci yarımili ilə müqayisədə istintaq təcridxanalarına daxil olan həbs edilmiş şəxslərin sayı 25 faizə qədər






azalmış, həbsdən azad edilmiş insanların sayı isə 28 % artmışdır. Bundan başqa müxtəlif əsaslarla, o cümlədən cəzanın yüngüllüyü ilə bağlı hökmlərdən verilən protestlər də xeyli azalmışdır.

Kollegiyada Sərəncamın icrası üzrə görülmüş işlərə dair geniş prezentasiya nümayiş etdirilib, bu mühüm sənəddə nəzərdə tutulan bütün tədbirlərin dürüst, mütəşəkkil və müəyyən edilmiş müddətdə həyata keçirilməsi ilə bağlı əlavə tapşırıqlar verilib.

İclasda həmçinin 2017-ci ilin birinci yarısında ədliyyə orqanları tərəfindən nazirliyin digər fəaliyyət istiqamətləri üzrə görülmüş işlər barədə də ətraflı məlumatlar səsləndirilib.

Bildirilib ki, nazirlik tərəfindən əvvəlki dövrlə müqayisədə 22% çox - 800-ə yaxın qanunvericilik aktının layihəsi hazırlanıb, ictimai həyatın müxtəlif sahələrini tənzimləyən 970-dən artıq akt hüquqi ekspertizadan keçirilib. Nazirlik tərəfindən aparılan normativ aktların elektron bazasına (e-qanun.az) müraciət edən şəxslərin sayı 68 % artaraq 365 minə çatmışdır.

Dövlət başçısının vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları diqqətdə saxlanılaraq 26.800-ə yaxın vətəndaş müraciətinə baxılıb, 7 mindən artıq vətəndaş nazirlikdə, habelə bölgələrdə və "virtual qəbul" məntəqələri vasitəsilə qəbul edilib, qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülüb.

Notariat orqanları tərəfindən 1.89 milyondan çox notariat hərəkəti, habelə 156 minə yaxın vətəndaşlıq vəziyyəti aktı rəsmiləşdirilib, vətəndaşlara əlverişli şərait yaradılaraq doğumun səyyar qaydada bilavasitə doğum evlərində aparılması geniş təşviq olunub. Aparılan notariat əməliyyatları nəticəsində 42 milyon manatadək dövlət rüsumu, haqq və vergi ödətdirilib.

Qeyd olunub ki, əvvəlki illərdə olduğu kimi cari ildə də icra sənədlərinin sayı çoxalıb və 2016-cı ilin I yarımili ilə müqayisədə xeyli - 43% artaraq 694 mini ötüb, görülmüş tədbirlər nəticəsində mülki xarakterli icra sənədlərinin artıq 50,4 %-nin icrası təmin edilib, hüquqi və fiziki şəxslərə, o cümlədən vergi borcları ilə bağlı 366 milyon manatdan çox vəsait ödətdirilib.

Bildirilib ki, cari ildə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət qaydasında 30 minə yaxın bələdiyyə aktına baxılıb. 792 belə akt nazirliyin təklifləri əsasında ləğv edilib və ya dəyişdirilib, kobud qanun pozuntularına yol verən 33 bələdiyyə sədri barəsində inzibati xəta haqqında protokollar məhkəmələrə, cinayət xarakterli 15 fakt üzrə materiallar isə prokurorluğa göndərilib, qanunsuz ayrılmış 2 min hektara yaxın torpaq sahəsi geri qaytarılıb.

Dövlət gənclər siyasətinə uyğun olaraq yeni nəsil kadr korpusunun formalaşdırılması diqqət mərkəzində saxlanılıb, cari ildə 306 vakansiya üzrə təyinatlar aparılıb, digərlərinin komplektləşdirilməsi ilə bağlı birinci mərhələdə uğur qazanmış 248 şəxs üçün hazırda müsabiqənin ikinci mərhələsi başlanılır.

Ədliyyə Akademiyasında 2.200 ədliyyə işçisi və digər hüquqşünas tədris kurslarına cəlb olunub, Akademiyanın Hüquq Klinikasında 200-dən çox aztəminatlı şəxsə pulsuz hüquqi yardım göstərilib.

Yarımildə nazirliyin beynəlxalq hüquq əməkdaşlığının genişləndirilməsi üzrə tədbirlər görülüb, İran, Gürcüstan, Ukrayna və İndoneziya ədliyyə nazirləri, eləcə də Belarus və Latviya Ədliyyə Nazirliklərinin yüksək nümayəndə heyətləri ölkəmizə, habelə nümayəndə heyətimiz Əlcəzairə səfər etməklə əməkdaşlıq məsələləri müzakirə olunub, müvafiq sənədlər imzalanıb. Beynəlxalq öhdəliklərdən irəli gələn məsələlərlə bağlı 7.900-dək sorğunun icrası üzrə tədbirlər görülüb.

Ədliyyə fəaliyyətində ictimai iştirakçılığa böyük önəm verilərək ədliyyə naziri yanında fəaliyyət göstərən İctimai Komitə tərəfindən penitensiar müəssisələrə 32 başçəkmə həyata keçirilib, bu zaman 200-dən çox məhkuma hüquqi yardım göstərilib. Vaxtından əvvəl şərti azad edilməsi institutunun təşviqi ilə bağlı nazirlik üzrə Xüsusi Komissiya səmərəli fəaliyyətini davam etdirib və

məhkəmələrə təqdim olunmuş 1.000-dən artıq məhkumun müraciəti müsbət həllini tapıb.

Kollegiyada, həmçinin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə işlərə toxunulub, ötən ayda ölkə Prezidentinin iştirakı ilə Bakı şəhəri Nərimanov, habelə mart ayında İmişli rayon məhkəmələrinin yeni müasir binalarının istifadəyə verildiyi, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə tədbirlər qeyd olunub.

İclasda görülmüş işlərlə yanaşı, ədliyyə fəaliyyətində mövcud problemlər və çatışmazlıqlar müzakirə olunub, ölkə Prezidentinin insanlara layiqli xidmət göstərilməsi, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması ilə bağlı tələbləri diqqətə çatdırılaraq konkret tapşırıqlar verilib.

Eyni zamanda işin səmərəliliyinin artırılması, əmək və icra intizamının gücləndirilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşların müraciətlərinə diqqət və qayğı ilə yanaşılması, icra işinin müasirləşdirilməsi və bununla bağlı "Elektron icra"nın tam tətbiqi və digər qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Kollegiyada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı dövlət başçısının Sərəncamının icrası üzrə tədbirlər müzakirə olunub, bu tarixi hadisənin və həmin ərəfədə qeyd olunacaq Azərbaycan ədliyyəsinin bir əsrlik yubileyi ilə əlaqədar konkret tapşırıqlar verilib, habelə bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Ədliyyə naziri Daşkəsən rayonunda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq iyulun 14-də ədliyyə naziri Fikrət Məmmədov Daşkəsən rayonunda Daşkəsən, Göygöl, Kəlbəcər və digər rayon və şəhərlərdən olan vətəndaşların qəbulunu keçirib.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 48-ci ildönümünə təsadüf edən bu tarixdə keçirilən qəbuldan əvvəl nazir və Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham



Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, hakim və ədliyyə işçiləri ilə müşavirə keçirib.

Nazir 1969-cu ilin iyulun 14-də Azərbaycana rəhbər seçilən ümummilli lider Heydər Əliyevin fəaliyyətinin bütün dövrlərində ölkəmizin və xalqımızın rifahı və gələcəyi naminə misilsiz xidmətlərindən bəhs edib, Ulu Öndərin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasının dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam

etdirilməsini, ölkəmizin gündən-günə çiçəklənməsini və bütün sahələrdə nailiyyətlərini vurğulayıb.

Müşavirədə, həmçinin ölkə Prezidentinin cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyəti qeyd olunaraq, vətəndaşların azadlıq hüququnun qorunmasına daha məsuliyyətlə yanaşılması, habelə şəffaflığın, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunmasının vacibliyi, eləcə də qərəzli yanaşmanın, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi vurğulanıb, aidiyyəti tövsiyə və tapşırıqlar verilib.



Eyni zamanda, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, rüşvətxorluğa, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı dövlət başçısının tələbləri diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssas və qayğı ilə yanaşılması vurğulanıb.

# Ədliyyə Nazirliyində görüş



**İyulun 6-da ədliyyə nazirinin müavini Toğrul Musayev ölkəmizdə səfərdə olan Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyası üzrə Məşvərətçi Komitənin nümayəndə heyəti ilə görüşüb.**

Nazir müavini yüksək tolerantlıq və multikulturalizm dəyərlərinə malik olan ölkəmizdə heç bir ayrı-seçkiliyə yol verilmədən bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyinin təmin edildiyini vurğulayıb, dövlətimizin prioritetlərindən biri olan milli azlıqların hüquqlarının müdafiəsi ilə bağlı qanunvericilik və institusional tədbirlər barədə məlumat verib.

Səfər zamanı Azərbaycanda millətlərin dinc və sabitlik şəraitində yaşadıqlarını müşahidə etdiklərini söyləyən nümayəndə heyəti ilə Çərçivə Konvensiyası üzrə ölkəmizin üzərinə götürdüyü öhdəliklərin icrası ilə bağlı təqdim olunmuş hesabat barədə fikir mübadiləsi aparılıb, ekspertləri maraqlandıran suallara aydınlıq gətirilib.

Söhbət zamanı qonaqların diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətlərinə cəlb olunaraq bu günlərdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı hərbi təxribatı nəticəsində azyaşlı Zəhra Quliyevanın və nənəsi Sahibə Quliyevanın qətlə yetirildiyi, daha bir mülki şəxsin ağır yaralandığı vurğulanıb və bildirilib ki, beynəlxalq birlik Ermənistanın işğalçılıq və terror siyasətinə son qoymaq üçün təsirli tədbirlər görməli, dinc sakinlərin, xüsusilə qadın və uşaqların qəddarcasına qətlə yetirilməsinə laqeyd və susqun münasibət bəsləməməlidir.

# İcra işinin səmərəliliyinin artırılması diqqət mərkəzindədir





**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə orqanlarının inkişafı üzrə aparılan islahatlar çərçivəsində məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilərək, bu sahədə təsirli tədbirlər görülür.**

İyulun 21-də Ədliyyə Nazirliyində icra xidmətinin bütün yerli qurumlarının, habelə nazirliyin müvafiq idarələrinin rəhbərlərinin iştirakı ilə məhkəmə qərarlarının icrası vəziyyətinin müzakirəsinə həsr olunmuş geniş müşavirə keçirilib.

Tədbiri giriş sözü ilə açan ədliyyə nazirinin müavini Vilayət Zahirov ədalət mühakiməsinin səmərəli həyata keçirilməsində məhkəmə qərarlarının icrasının mühüm əhəmiyyətini vurğulayıb, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsini, yeni təsirli icra mexanizmlərinin yaradılmasını, icra məmurlarının səlahiyyətlərinin genişləndirilməsini, xidmətin şəffaf müsabiqələrlə hazırlıqlı gənclərlə komplektləşdirilməsini, maddi-texniki bazasının və infrastrukturunun müasirləşdirilməsini, "elektron icra" sisteminin tətbiqini qeyd edib.

Bununla belə bu sahədə çatışmazlıqların və həllini gözləyən problemlərin olduğunu söyləyən nazir müavini dövlət başçısının cari il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyətini qeyd edib, bu mühüm sənədin icrası ilə bağlı nazirliyin qarşısında duran vəzifələri, o cümlədən ictimai işlər cəzasının formal icrası təcrübəsinin qarşısının alınması, bu və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan digər cəzaların icrasına effektiv nəzarətin təmin edilməsi, müasir İKT-lərin imkanlarından geniş istifadə olunması ilə bağlı tapşırıqları diqqətə çatdırıb.

Sonra İcra baş idarəsinin rəisi - Baş icra məmuru Nurəddin Mustafayev məruzə edərək bu sahədə görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.

Bildirilib ki, əhalinin məhkəmələrə inamının təzahürü olaraq son illər baxılan işlərin sayının çoxalması icra xidmətində də iş həcminin dəfələrlə artmasına səbəb olub. Cari ilin birinci yarısında icrası təmin edilən işlərin sayı 50,4% artaraq 288 mini ötüb, fiziki, hüquqi şəxslərə və dövlət büdcəsinə, o cümlədən vergi borcları ilə bağlı 366 milyon manatdan çox vəsait ödətdirilib. İcra sənədlərini qərəzli icra etməyən, icra məmurlarının qanuni tələblərini yerinə yetirməyən 2.304 nəfər inzibati məsuliyyətə cəlb edilib, o cümlədən 1.608 şəxs məhkəmələr tərəfindən inzibati qaydada həbs olunub, 161 şəxs barəsində cinayət işi başlanılıb. Həmçinin, 6.320 borclunun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılıb, məhkəmə qərarını icra etmiş şəxslərin üzərindən əvvəllər qoyulmuş belə məhdudiyyət götürülüb.

Qeyd olunub ki, icra xidmətində mövcud olan kəskin iş yükü məhkəmələrdə baxılan işlərlə mütənasib olduğundan bu sahədə işin səmərəli təşkili üzrə tədbirlər görülüb, ötən ilin sonunda "İcra haqqında" Qanuna dəyişikliklər edilməklə məhkəmələr və icra qurumları arasında iş yükü bölgüsünə yenidən baxılıb, icra olunmuş icra sənədləri üzrə icraata xitam verilməsi və dayandırılması səlahiyyətlərinin icra məmurlarına verilməsi ilə bu sahədə operativliyə nail olunub, əlavə yazışmalara son qoyulub, vaxta və dövlət xərclərinə qənaət edilib.

Bununla yanaşı, icra orqanlarının fəaliyyətində operativliyin və şəffaflığın təmin olunması üçün "Elektron icra" sisteminin yaradılması üzrə əməli tədbirlər görülür. Artıq cari ilin əvvəlindən bütün icra qurumlarına daxil olan icra sənədlərinin qeydiyyatı bu sistem vasitəsilə aparılır. Elektron sistemin tətbiqi icra hərəkətlərinin mütəşəkkil və dürüst təmin olunmasına, elektron sənəd dövriyyəsinin təşkilinə, prosessual müddətlərə nəzarət olunmasına geniş imkanlar yaradıb.

Müşavirədə dövlət başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası çərçivəsində icra xidməti tərəfindən yerli icra hakimiyyəti orqanları ilə səmərəli qarşılıqlı fəaliyyət qurularaq ictimai işlər cəzasının icra ediləcəyi yerlərin siyahılarının müəyyən edilməsi ilə bağlı konkret addımların atıldığı, bu cəzaya məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydasının, habelə məhkumların ictimai işlər növündə cəzanı çəkməkdən yayınmasına şərait yaradılmasına görə vəzifəli şəxslərin məsuliyyətini müəyyən edən qanun layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edildiyi bildirilib.

Bununla yanaşı, fəaliyyətində yol verdikləri ciddi qanun pozuntularına və digər neqativ hallara görə cari ilin birinci yarısında xidmətin 20 əməkdaşının intizam məsuliyyətinə cəlb olunduğu, o cümlədən 3 nəfərin ədliyyə orqanlarında qulluğuna xitam verildiyi, 7 nəfərin isə tutduğu vəzifədən azad edildiyi vurğulanıb, bəzi icra məmurları tərəfindən vəzifə borclarına laqeyd münasibət bəslənilməsi, icra intizamının, etik davranış qaydalarının pozulması, işlərin hərəkətsiz saxlanılması halları və digər nöqsan və çatışmazlıqlar icra qurumlarının rəhbərlərinin nəzərlərinə çatdırılaraq onların aradan qaldırılması tələb edilib.

Mövcud problemlərlə bağlı nazirliyin məsul işçiləri və yerli icra qurumlarının rəhbərləri dinlənilib, nöqsanların səbəbləri və onların aradan qaldırılması yolları müzakirə edilib.

Müşavirəyə yekun vuran nazir müavini xidmətin işinin dövlət başçısının tələbləri səviyyəsində qurulmasını, məhkəmə qərarlarının vaxtında və dürüst icrasına nail olunmasını, vətəndaş məmnunluğunun yüksəldilməsini, qanunvericiliyin tələblərinə, habelə etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyini vurğulayıb, tabe qurumların fəaliyyətinə tələbkarlığın və nəzarətin gücləndirilməsi, icra məmurlarının məsuliyyət hissinin və peşəkarlığının artırılması ilə bağlı və s. konkret tapşırıqlar verib.

Sonra tədbir azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası, probasiya institutunun tətbiqi mövzusunda seminar-məşğələ ilə davam edib.

# Penitensiar xidmətdə əməliyyat müşavirəsi





**İyulun 19-da Penitensiar xidmətdə 2017-ci ilin birinci yarısının yekunlarına həsr olunan əməliyyat müşavirəsi keçirilib. Müşavirədə Penitensiar xidmətin rəhbərliyi, tabe qurumların rəis heyəti və Ədliyyə Nazirliyinin məsul əməkdaşları iştirak ediblər.**

Ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov tədbiri açaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə iyulun 12-də keçirilmiş cari ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə qaldırılan məsələlərlə bağlı ədliyyə orqanlarının üzərinə düşən vəzifələrin icrası istiqamətində bir sıra kompleks tədbirlərin nəzərdə tutulduğunu bildirib.

Qeyd olunub ki, ölkə Prezidentinin cari ilin fevral 10-da imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar

olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamın icrası üzrə müvafiq komissiya yaradılıb. Komissiya tərəfindən müvafiq xidmət sahələrinin fəaliyyətinin təkmilləşdirilməsi, məntəqə tipli cəzaçəkmə müəssisələrində işin qanunvericiliyə uyğun təşkili, əməkdaşların sosial müdafiəsi və digər məsələlər üzrə təkliflər hazırlanaraq təqdim olunub.

Baş idarədə və tabe qurumlarda təmir-abadlıq işləri aparılıb, iş şəraitinin yaxşılaşdırılması məqsədi ilə xidməti otaqlar yeni müasir tipli mebel dəstləri, zəruri avadanlıq və inventarla təchiz edilib. Ölkə başçısı humanist təşəbbüslə çıxış edərək uzun illər məhkumlara, onların ailələrinə qayğı ilə yanaşmanı davam etdirib, cari ilin 16 mart tarixində 423 məhkumun, onlardan azadlıqdan məhrum etmə cəzasını çəkən 414 məhkumun əfv edilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncam vaxtında və dürüst icra edilib.

Penitensiar xidmətin rəis müavini Oqtay Məmmədov xidmətin yarım il ərzindəki fəaliyyətinin yekunlarına dair hesabat məruzəsi ilə çıxış edərək, işin müasir dövrün tələbləri səviyyəsində qurulması, Xidmətin maddi-texniki bazasının inkişaf etdirilməsi, nizam-intizamın möhkəmləndirilməsi, təqsirləndirilən şəxslərin və məhkumların qanunvericiliklə genişləndirilmiş hüquqlarının təmin edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun səmərəli fəaliyyətinin təmin edilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

Həyata keçirilmiş axtarış-baxış tədbirləri nəticəsində hesabat dövründə 72 mobil telefon, 79,343 qram müxtəlif narkotik və psixotrop maddələr, 58 litr qıcqırdılmış maye aşkar edilərək götürülüb və həmin faktlar üzrə toplanmış materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti hüquq-mühafizə orqanlarına təqdim olunub.

Digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyət nəticəsində 297 müxtəlif, o cümlədən xüsusilə ağır cinayətlərin üstünün açılmasına köməklik göstərilib.

Hesabat dövrü ərzində pozuntulara yol verən 132 əməkdaş intizam məsuliyyətinə cəlb olunub, 6 əməkdaş tutduğu vəzifədən azad edilib, 10 əməkdaş isə ədliyyə orqanlarından xaric olunub.

Müşavirədə Penitensiar xidmətin ayrı-ayrı idarə rəisləri və cəzaçəkmə müəssisələrinin rəhbərlərinin çıxışları dinlənilib.

Əməliyyat müşavirəsinə yekun vuran nazir müavini, Penitensiar xidmətin rəisi C.Həsənov məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının daha etibarlı təmini, əməliyyat-axtarış və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, rejim və davranış qaydalarına dönmədən riayət olunması, qanunsuz əşyaların ötürülməsi və dövriyyəsinin qarşısının alınması məqsədilə preventiv tədbirlərin həyata keçirilməsinə dair tapşırıqlar verib.

Eyni zamanda nizam-intizamın gücləndirilməsi, islah və tərbiyə işinin səmərəliliyinin artırılması, penitensiar müəssisələrdə istehsalat sahələrinin genişləndirilməsi və kadrlarla işin təkmilləşdirilməsi istiqamətində səylərin artırılmasının, özbaşınalıq, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, korrupsiya halları ilə mübarizənin daim diqqət mərkəzində saxlanılmasının vacibliyi vurğulanıb.

# Ədliyyə orqanlarına qulluğa qəbul üzrə müsabiqə iştirakçılarının nəzərinə

**Nazirliyin Müsabiqə Komissiyası bildirir ki, ədliyyə orqanlarına qulluğa qəbulla bağlı 10.06.2017-ci il tarixdə keçirilmiş növbəti test imtahanından uğur qazanmış və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanuna uyğun olaraq müsabiqənin ikinci mərhələsinə buraxılan namizədlərlə 2017-ci ilin avqust ayının 10-dan etibarən söhbət keçirilməsinə başlanılacaqdır.**

Söhbət Ədliyyə Nazirliyinin inzibati binasında (Bakı şəhəri, İnşaatçılar prospekti, 1 ünvanında) fərdi qaydada keçiriləcək və hər bir namizədə bu barədə elektron kabinetləri və digər informasiya vasitələri ilə əvvəlcədən məlumat veriləcəkdir.

Xatırladırıq ki, qanunvericiliyə əsasən söhbətin nəticələrinə görə uğur qazanmış hüquqşünaslar peşə fəaliyyətinə buraxılması məqsədilə Ədliyyə Akademiyasında icbari təlimə cəlb ediləcək və təlimin yekunları üzrə imtahandan müvəffəqiyyətlə keçənlərin qulluğa qəbul məsələsi həll olunacaqdır.

Əlavə məlumatları (012) 538-01-62, (012) 537-05-90 nömrəli telefonlar vasitəsilə əldə etmək mümkündür.

# Notariat fəaliyyəti ilə məşğul olmaq istəyənlərin nəzərinə

**Ölkə başçısının rəhbərliyi ilə respublikamızda aparılan genişmiqyaslı sosial-iqtisadi islahatlar nəticəsində iqtisadiyyatımızın davamlı inkişafı təmin olunub, mülki münasibətlərin dairəsi xeyli genişlənib.**

Bu münasibətlərin tənzimlənməsində vacib rol oynayan notariat təsisatının müasirləşdirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilib, beynəlxalq təcrübə nəzərə alınmaqla xüsusi notariat institutu tətbiq edilib və şəffaf müsabiqələr yolu ilə yeni notariuslar korpusu formalaşdırılıb.

Notariat fəaliyyətinin daha səmərəli təşkil olunması, əhaliyə göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə bu sahədə işlər davam etdirilməkdədir.

Hazırda Cəlilabad, Xızı, İmişli, Masallı, Quba, Samux, Saatlı, Şəmkir və Yardımlı rayonlarında vakant olan notarius vəzifələrində fəaliyyət göstərmək məqsədilə şəhadətnamə almaq istəyən və "Notariat haqqında" Qanunun tələblərinə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşları üçün sənədlərin qəbulu elan olunur.

Test imtahanında iştirak etmək arzusunda olan şəxslər sənədlərini 2017-ci ilin avqust ayının 1-dən etibarən Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinə (Bakı şəhəri, Azadlıq prospekti, 72) bütün iş günləri təqdim edə bilərlər.

Xatırladırıq ki, "Notariat haqqında" Qanunun və "Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"nın tələblərinə uyğun olaraq test imtahanından uğur qazanmış namizədlər növbəti mərhələ olan müsahibəyə buraxılırlar. Müsahibəni müvəffəqiyyətlə başa vuranlar isə Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunurlar, bu zaman onlar, həmçinin notariat fəaliyyəti üzrə təcrübə də keçirlər. İcbari təlimin yekununda aparılan qiymətləndirmənin nəticəsi üzrə notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamə verilir.

Tələb olunan sənədlərin siyahısı, imtahan, müsahibə və icbari təlimin keçirilməsi qaydaları ilə nazirliyin internet saytında tanış olmaq, habelə 404-42-28, 404-42-29 nömrəli əlaqə telefonları vasitəsilə məlumat almaq mümkündür.

Test imtahanının vaxtı və yeri barədə əlavə informasiya veriləcəkdir.

# Yoxlamaların hüquqi tənzimlənməsi sahəsində maarifləndirmə işi davam etdirilir






**İyulun 7-də Yevlaxda, 14-də isə Xaçmaz şəhərlərində Ədliyyə Nazirliyi tərəfindən İqtisadiyyat Nazirliyi ilə birgə həmin şəhərlərin və ətraf rayonların aparıcı sahibkarlarının, habelə Vergilər, Fövqəladə Hallar, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, eləcə də bir sıra qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə yoxlayıcı orqanların maarifləndirilməsinə dair seminarlar keçirilib.**

Tədbirlərdə Ədliyyə Nazirliyi Qeydiyyat və

notariat baş idarəsinin əməkdaşları Anar Quliyev və Novruz Əşrəfov tərəfindən çıxış edərək sahibkarların hüquqlarının müdafiəsi sahəsində son zamanlar qəbul olunmuş normativ hüquqi aktlar, o cümlədən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", habelə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunların məqsəd və prinsipləri, əhəmiyyəti, yoxlamaların təşkili və aparılmasının yeni qaydaları, yoxlayıcı orqanların vəzifələri, həmçinin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"yə edilmiş son dəyişikliklər barədə məlumat verilib, yoxlamaların vahid məlumat reyestrinin fəaliyyətindən bəhs olunub.

Bununla yanaşı, İqtisadiyyat Nazirliyinin nümayəndələrinin ölkəmizdə uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası, sahibkarlığa göstərilən dövlət dəstəyi, investisiya təşviqi sənədinin verilməsi qaydası barədə məruzələri dinlənilib.

Yekunda sahibkarların sualları cavablandırılıb, yoxlamalarla bağlı tətbiq edilən məhdudiyyətlər barədə xüsusi maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

# Ədliyyə Akademiyasının məlumatları



**Ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə həyata keçirilən islahatlar çərçivəsində hakimlərin tədrisinə xüsusi diqqət yetirilərək, bu sahədə Avropanın ən mütərəqqi modellərindən istifadə olunur, hakimlərlə sorğular keçirilərək onların tədrisinə ehtiyac bildikləri sahələr və mövzular öyrənilməklə tədris proqramları hazırlanır və Ədliyyə Akademiyası tərəfindən, o cümlədən beynəlxalq təşkilatlarla birgə mütəmadi tədris tədbirləri keçirilir.**

İyulun 7-də Bakı şəhəri Sabunçu Məhkəmə Kompleksində "Məhkəmələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi məsələləri" mövzusunda ixtisasartırma kursu keçirilib.

11 hakimin iştirak etdiyi kursda "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və məhkəmə fəaliyyətində müasir texnologiyaların tətbiqi, elektron hökumət, məhkəmələrdə müxtəlif kompüter proqramlarından istifadənin əhəmiyyəti kimi məsələlər barədə təqdimatlar keçirilib, hakimləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

Akademiya tərəfindən iyulun 13-14-də Avropa Şurası ilə birgə keçirilmiş növbəti təlim isə "Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsi (Azadlıq və toxunulmazlıq hüququ)" mövzusuna həsr olunub.

20 hakimin iştirak etdiyi təlimdə azadlıq hüququnun anlayışı və əhəmiyyəti, həbsin qanuniliyi: azadlıqdan məhrum edilmiş şəxslər üçün təminatlar, qeyri-qanuni həbsə görə kompensasiya hüququ kimi məsələlər barədə mühazirələr dinlənilib.

**Üç ildir ki, UNİCEF, Ədliyyə və Polis akademiyaları, Ombudsman ilə birgə hakimlər, dövlət ittihamçıları, icra mə-**



çərçivəsində Ədliyyə Akademiyası tərəfindən paytaxtda və regionlarda silsilə təlimlər keçirilir.**

İyulun 19-20-də Gəncə şəhərində vəkillər üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsi (Yaşamaq hüququ) və 5-ci maddəsi (Azadlıq və toxunulmazlıq) mövzusunda iki günlük təlim keçirilib. Ümumilikdə 30 nəfər vəkilin qatıldığı təlimdə müvafiq mövzular bu layihə çərçivəsində keçirilmiş təlimçilər üçün təlim proqramının iştirakçıları tərəfindən tədris olunub.

**murları, polis əməkdaşları, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların əməkdaşları üçün "Uşaqlar üçün ədliyyə", "Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsi" mövzularında hüquqi maarifləndirmə və bacarıqların artırılması məqsədilə treninqlər keçirilir.**

Növbəti treninq iyulun 19-20-də Bakı şəhərinin Suraxanı, Xəzər və Pirallahı rayonlarının hakimləri, ədliyyə, prokurorluq, polis və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün Daxili İşlər Nazirliyinin Polis Akademiyasında təşkil olunub.

20-dən çox dinləyicinin iştirak etdiyi tədbirdə "Yuvenal ədliyyə" və "Uşaqlar üçün ədliyyə" arasında fərqlər və oxşarlıqlar, beynəlxalq alətlər, qanun pozuntusu törədən uşaqlarla profilaktik iş, yayındırma, cəzalara alternativlər və s. mövzular ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Həmçinin, yuvenal ədliyyə sistemində aparılan islahatların qanunla münaqişədə olan uşaqlara təsirinin qiymətləndirməsi vəziyyəti, yerli icra hakimiyyəti orqanları nəzdində fəaliyyət göstərən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların fəaliyyətinə yeni yanaşmalar, xarici ölkələrin bu sahədə müsbət təcrübəsi, mövcud çətinliklər əsas müsakirə mövzularından olub.

**Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planı əsasında həyata keçirilən "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi**

**İyulun 20-də Gəncə şəhəri Nizami Rayon Məhkəməsində Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmə aparatı işçiləri üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)" mövzusunda ixtisasartırma kursu keçirilib.**



35-dək əməkdaşın cəlb olunduğu kursda tədris proqramına uyrun olaraq "İnsan Hüquqlarının və əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsi: ümumi baxış", "Ədalətli məhkəmə araşdırması hüququnun tətbiqi dairəsi", "Ədalətli məhkəmə araşdırması hüququ üzrə təqsirləndirilən şəxsin təminatları" barədə mövzulara dair mühazirələr dinlənilib.

# Nurəddin Mustafayev: İcra xidmətində qanunçuluğun möhkəmləndirilməsi bu sahədə işin səmərəliliyinə müsbət təsir göstərib



*Xəbər verildiyi kimi, iyulun 21-də Ədliyyə Nazirliyində məhkəmə qərarlarının icrası vəziyyətinin müzakirəsinə həsr olunmuş geniş müşavirə keçirilib. Bununla əlaqədar insan hüquqlarının təmin edilməsində, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm əhəmiyyət kəsb edən məhkəmə və digər orqanların qərarlarının icrası sahəsində mövcud vəziyyət və çətinliklər, aparılan islahatlar və qarşıda duran məqsədlər barədə Ədliyyə Nazirliyi İcra baş idarəsinin rəisi - baş icra məmuru baş ədliyyə müşaviri Nurəddin Mustafayev AzərTAc-a müsahibə verib:*

**- Hörmətli Nurəddin müəllim, ilk öncə məhkəmə qərarlarının icrasına bilavasitə rəhbərlik edən Baş icra məmuru kimi, bu sahənin əhəmiyyəti barədə oxuculara məlumat verməyinizi istərdik.**

- Çox sağ olun. Fikrimcə, insan hüquq və azadlıqlarının təmin edilməsində məhkəmə qərarlarının icrası qədər vacib və əhəmiyyətli olan sahələr çox azdır. Məhkəmə icraatının davamı və son mərhələsi olan məhkəmə qərarlarının icrası Avropa İnsan Haqları Məhkəməsinin qərarlarında vurğulandığı kimi, ədalət mühakiməsinin tərkib hissəsidir. Hüququn bərpası, ədalətin təntənəsi məhz qərarın icrası anında tamamlanır və həmin anda haqq sahibində daxili bir razılıq və könül xoşluğu yaradır. Ona görə də bu sahə əhəmiyyətli və məsuliyyətli olduğu qədər, qərarların icrasına nail olmağın faydası və mənəvi zövqü də böyükdür.

İcra icraatını bilavasitə həyata keçirən Ədliyyə Nazirliyinin İcra xidmətinin əsas fəaliyyəti vətəndaşların hüquqlarının bərpa olunmasını, qərarların icrasını vaxtında və dürüst təmin etməkdir. Bu, olduqca məsuliyyət və operativlik tələb edir. Çünki əhalinin məhkəmələrə inamının təzahürü olaraq baxılan işlərin sayının çoxalması icra xidmətində də iş həcminin həddindən çox artmasına səbəb olmuşdur. Təkcə ötən il ərzində yerli icra qurumlarının icraatında olan icra sənədlərinin sayı 712 mini ötmüş, bu ilin birinci yarısında isə 695 minə çatmışdır. Bu olduqca böyük rəqəmdir və mən deyərdim arzuolunmazdır. Doğrudur, bunun bir sıra obyektiv səbəbləri, eyni zamanda məhkəmə mübahisələrinin çoxluğunun müsbət tərəfləri vardır - vətəndaşların məhkəmələrə inamının artması, aralarındakı mübahisələri məhz bu müstəvidə, mədəni səpkidə həll etməyə üstünlük vermələri kimi. Bununla belə son dövrlər məhkəmə işlərinin, dolayısı ilə icra sənədlərinin kəskin artması iqtisadi mübahisələrlə bağlı olur. Təsadüfi deyil ki, icraatda olan icra sənədlərinin böyük bir qismi kredit mübahisələri ilə əlaqədardır. Buna baxmayaraq İcra xidməti olaraq üzərimizə düşən vəzifə, sözsüz ki, qərarların icrasını təmin etməkdir. Ona görə də bu sahədə işin səmərəli qurulması, elmi texniki nailiyyətlərin tətbiqi daim diqqət mərkəzində saxlanılır.

**- İcra işinin yaxşılaşdırılması istiqamətində nə kimi islahatlar aparılır?**

- Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən genişmiqyaslı məhkəmə-hüquq islahatları nəticəsində ədalətli məhkəmə hüququnun ayrılmaz tərkib hissəsi olan məhkəmə qərarlarının icrası işi yenidən qurulmuş, ilk növbədə, icra xidmətinin

fəaliyyəti və strukturu təkmilləşdirilmiş, Konstitusiyada məhkəmə qərarlarının icra olunmamasına görə məsuliyyət təsbit olunmuş, qanunvericilik əsaslı şəkildə yenilənərək təsirli icra mexanizmləri yaradılmış, icra məmurlarının səlahiyyətləri genişləndirilmiş, məhkəmə və digər orqanların qərarlarının icra edilməməsinə görə inzibati və cinayət məsuliyyəti sanksiyaları sərtləşdirilmişdir.

Eyni zamanda, borclunun ölkədən getmək hüququnun məhdudlaşdırılması mexanizmi təkmilləşdirilərək, insan hüquqlarının təmin olunması baxımından qadağanın daha çevik götürülməsi məqsədilə icra xidmətində "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi quraşdırılmış və bununla bağlı nazirliyin internet saytında elektron xidmət fəaliyyət göstərir.

Onu da xüsusi qeyd etmək lazımdır ki, dövlət orqanları tərəfindən məhkəmə qərarlarının icrası vəziyyəti ölkə Prezidentinin daim nəzarətindədir və bu məsələ ilə bağlı hər altı aydan bir müvafiq hesabatın ölkə başçısına təqdim olunması icra prosesi iştirakçılarının məsuliyyət hissinin artırılmasına xidmət edərək öz müsbət nəticəsini verir.

Ümumiyyətlə, bu sahədə işin müasir tələblər səviyyəsində qurulması, təcrübədə meydana çıxan çətinliklər, mövcud iş yükünün azaldılması istiqamətində mühüm addımlar atılır, beynəlxalq təcrübə öyrənilməklə qanunvericilik daim təkmilləşdirilir, icra orqanlarının fəaliyyətində operativliyin və şəffaflığın təmin olunması məqsədilə elektron icra sisteminin tətbiqi üzrə əməli tədbirlər görülür.

Ötən ilin sonunda "İcra haqqında" Qanuna dəyişikliklər edilməklə məhkəmələr və icra qurumları arasında iş yükü bölgüsünə yenidən baxılmış, icra olunmuş icra sənədləri üzrə icraata xitam verilməsi və dayandırılması səlahiyyətlərinin icra məmurlarına verilməsi ilə bu sahədə operativliyə nail olunmuş, əlavə yazışmalara son qoyulmuş, vaxta və dövlət xərclərinə qənaət edilmişdir.

Bundan əlavə, icra məmurları tərəfindən qanunçuluğa, etik davranış qaydalarına riayət olunması, insanlara layiqli xidmət göstərilməsi, onların müraciətlərinə daim həssaslıqla yanaşılması, korrupsiyanın yolverilməzliyi fəaliyyətimizin əsas rəhbər prinsipləridir.

Ötən bir ildə icra xidmətində qanunçuluğun möhkəmləndirilməsi, əmək və icra intizamına diqqətin artırılması, tələbkarlığın və nəzarətin gücləndirilməsi, hər bir icra məmurunun fəaliyyətinin fərdi olaraq qiymətləndirilməsi bu sahədə işin səmərəliliyinə müsbət təsir göstərmişdir.

Statistikaya nəzər yetirsək görərik ki, ötən il görülmüş kompleks tədbirlər nəticəsində əvvəlki illə müqayisədə 34 faiz çox - 300 mindən artıq işin icrasına nail olunmuş, fiziki, hüquqi şəxslərə və dövlət büdcəsinə, o cümlədən vergi borcları ilə bağlı təxminən 3 dəfə çox - 560 milyon manatadək vəsait ödətdirilmişdir.

Bu sahədə göstəricilər cari ildə də artan templə davam etmiş, 6 ay ərzində icrası təmin edilən işlərin sayı 50,4% artaraq 288 mini ötmüşdür.

Sözsüz ki, məhkəmə qərarlarının icrasının təmin olunması vətəndaş məmnunluğu doğurur. Lakin unutmaq olmaz ki, icra icraatında çıxış edən tərəflərdən birinin narazı olduğu hallar da mövcuddur. Belə ki, şikayətlərin böyük əksəriyyəti əsassız olmaqla bir çox hallarda bilavasitə icra məmuru ilə deyil, qarşı tərəfin hərəkətləri ilə bağlı olur.

Bununla belə vətəndaşın nə cür düşünməsindən asılı olmayaraq onun müraciətlərinə nazirlik tərəfindən daim xüsusi həssaslıqla yanaşılır, hər bir müraciət diqqətlə öyrənilir, onun qanunamüvafiq və operativ qaydada həlli üçün konkret tədbirlər görülür. Eyni zamanda, vətəndaşlar mütəmadi olaraq nazirlikdə qəbul olunurlar, həmçinin səyyar, virtual qaydada qəbullar təşkil edilir.

Qeyd olunmalıdır ki, ötən bir ildə həyata keçirilən məqsədyönlü tədbirlərin, vətəndaşların yerlərdə müraciətlərinə və qəbulu işinə göstərilən diqqətli münasibətin nəticəsidir ki, Nazirliyə qəbula gələn vətəndaşların sayında xeyli azalma müşahidə olunur, icra işi ilə bağlı müraciətlərin sayı da icraatda olan işlərin sayı kontekstində xeyli azalmışdır. Məsələn, cari ildə icraatda 700 minə qədər iş olduğu halda, daxil olan şikayətlərin sayı böyük əksəriyyəti dublikat olmaqla 9335 ədəd təşkil etmişdir. Başqa sözlə, barəsində şikayət edilən işlərin sayı bütün işlərin heç 1%-nə çatmır. Yəni bu

qədər işin müqabilində bu sayda müraciətin olması başa düşüləndir. Amma təbiidir ki, bu, bizi qətiyyən arxayın etmir, insanlara layiqli xidmət göstərilməsi, onların müraciətlərinə vaxtında və dürüst baxılması hər bir icra məmurunun ümdə vəzifəsidir.

Onu da əlavə etmək lazımdır ki, məhkəmə qərarlarının icrasına aruzolunan səviyyədə nail olunması vətəndaşlarda hüquq düşüncəsinin formalaşdırılmasından bilavasitə asılıdır. Bu istiqamətdə icra xidməti kütləvi informasiya vasitələrindən istifadə edərək maarifləndirici verilişlər yayır. Hər həftənin şənbə günü İctimai Televiziyada və bazar ertəsi günü İctimai Radioda yayımlanan "Qanundan kənar" verilişinin "İcra məmuru" rubrikasında İcra xidmətinin fəaliyyəti ilə bağlı ətraflı məlumatlar verilir.

**- İcra xidmətinin kadrlarla komplektləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir İKT-lərin, elektron xidmətlərin tətbiqi barədə nə deyə bilərsiniz?**

- Şübhəsiz ki, işin səmərəli təşkil olunması, qarşıda duran vəzifələrin və funksiyaların uğurla yerinə yetirilməsi, ilk növbədə mənəvi cəhətdən saf, müasir dünyagörüşünə malik, yüksək bilikli və hazırlıqlı kadrların sayəsində mümkündür. Ədliyyə orqanlarının, o cümlədən icra xidmətinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması da kadrlarla işin təşkilindən, onların düzgün seçilməsindən çox asılıdır.

Təsadüfi deyil ki, icra xidmətinin layiqli kadrlarla komplektləşdirilməsi məqsədilə ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilən müsabiqələr nəticəsində uğur qazananların 60%-i, əksəriyyəti gənclər olmaqla məhz icra qurumlarına təyin olunmuşlar. Bununla yanaşı, fəaliyyətində ciddi qanun pozuntularına, o cümlədən vətəndaşların haqlı narazılıqlarına səbəb olan neqativ hallara görə xidmətin bəzi əməkdaşları ciddi cəzalandırılmış, o cümlədən ədliyyə orqanlarından xaric edilmişlər.

Eyni zamanda, ötən il yerli icra qurumlarında rəhbər işçilərin rotasiyası üzrə tədbirlər görülərək İcra baş idarəsinin təcrübəli əməkdaşları həmin qurumlara rəhbər vəzifələrə təyin olunmuş, vəzifədə irəli çəkilməsi nəzərdə tutulan digər əməkdaşlar baş idarənin fəaliyyətinə cəlb olunaraq peşəkarlığı yoxlanılmaqla təyinatları aparılmışdır.

Kadrların peşəkarlığının artırılması məqsədilə, həmçinin Ədliyyə Akademiyasında mütəmadi təlimlər və ixtisasartırma kursları təşkil edilir, qabaqcıl beynəlxalq təcrübələrə yiyələnmək üçün xarici ölkələrə ezam olunurlar.

Həmçinin, yerli qurumlara müntəzəm olaraq əməli köməklik göstərilir, bu məqsədlə ötən il "İcra haqqında" Qanunun Kommentariyası hazırlanmış, Qanunun tətbiqi ilə bağlı yaranan nəzəri və praktiki məsələlərin ətraflı şərhində və mövcud boşluqların aradan qaldırılmasında mühüm töhfə olan Kommentariya hər bir icra məmurunun stolüstü kitabına çevrilmişdir.

Xidmətin infrastrukturunun müasirləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə də ardıcıl tədbirlər görülür. Əvvəllər əlverişsiz binalarda fəaliyyət göstərən bir sıra məhkəmələr üçün dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində yeni, müasir binaların və komplekslərin inşa olunaraq istifadəyə verilməsi ilə həmçinin, müvafiq icra qurumları üçün də yüksək tələblərə uyğun müasir iş şəraiti yaradılmışdır. Eyni zamanda, bəzi icra qurumlarının binaları əsaslı təmir edilərək bütün texniki avadanlıqlarla təchiz olunmaqla istifadəyə verilmiş, qurumların böyük hissəsi avtonəqliyyat vasitələri ilə təmin edilmişdir.

İcra xidmətinin maliyyələşməsində mühüm rol oynayan və tələbi könüllü icra etməyən borclulardan tutulan icra ödənişlərinin müəyyən hissəsinin hesabına formalaşan İcra məmurlarının Xüsusi Fondu xidmətin maddi-texniki bazasının möhkəmləndirilməsinə geniş imkan verir.

Fondun vəsaitlərindən, həmçinin icra məmurlarının həvəsləndirilməsində istifadə olunur. Bu zaman əsas meyar icra məmurunun işi fərdi qiymətləndirilməklə səmərəli fəaliyyəti, icra işlərinin yerinə yetirilməsi faizi, barəsində edilən şikayətlərin sayı nəzərə alınır. Bu, icra məmurlarında stimul yaratmaqla, icra işinin keyfiyyətinə müsbət təsir göstərir.

İcra işinin səmərəliliyinin yüksəldilməsində müasir İKT-lərin, innovativ xidmətlərin rolu da danılmazdır. Bu mənada məhkəmə fəaliyyətinin

elektronlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 13.02.2014-cü il tarixli Sərəncamına əsasən "Elektron məhkəmə" informasiya sisteminin yaradılması və bu sistemin mühüm tərkib hissəsi olan "Elektron icra"nın tətbiqi xüsusilə qeyd olunmalıdır.

"Elektron icra" ən sadə şəkildə ifadə etsək, kağız üzərindəki icraatın elektron formata köçürülməsi, zəruri icra hərəkətlərinin onlayn rejimdə, avtomatlaşdırılmış qaydada aparılmasıdır. Bu sistemin tətbiqi məqsədilə icra qurumları zəruri texniki avadanlıqlarla təmin edilmiş, icra xidməti əməkdaşlarının informasiya texnologiyaları üzrə bilik və bacarıqlarının artırılması ilə bağlı təlimlər keçirilmişdir.

Cari ilin əvvəlindən bütün icra qurumlarına daxil olan icra sənədlərinin qeydiyyatı "Elektron icra" sistemi vasitəsi ilə aparılır. Həmçinin, bu sistemin tətbiqi ilə icra işlərinə vahid qeydiyyat nömrəsinin verilməsi, işlərin icra məmurları arasında avtomatlaşdırılmış qaydada bölgüsünün aparılması, tərəflərə məlumatların elektron qaydada (elektron poçt, SMS məlumatlandırma və s.) çatdırılması, işlər üzrə prosessual müddətlərə riayət olunmasına nəzarət edilməsi və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici funksiyalara malik olunması, borcluların əmlak vəziyyətinin elektron icra xidmətinə inteqrasiya olunmuş dövlət qurumlarının elektron bazası vasitəsilə yoxlanılması, icra sənədi üzrə tərəflərin icraat materialları ilə tanış olmaq hüququndan yararlanması, statistik hesabatların səhih və avtomatlaşdırılmış şəkildə tərtib olunması, icra icraatı prosesində eləcə də cəzaların icrası və məhkəmələrin müəyyən olunmuş fəaliyyət qaydasının təmin olunması ilə bağlı icra məmurları tərəfindən istifadə olunan prosessual sənədlərin avtomatlaşdırılmış şəkildə tərtib olunması, icra məmurlarının fəaliyyətinin fərdi qaydada qiymətləndirilməsi, elektron imzanın tətbiq edilməsi, habelə icra məmurlarının fəaliyyətinə nəzarətin gücləndirilməsi imkanı yaranmışdır.

Göründüyü kimi, bu sistemin faydaları olduqca çoxdur. Sistem icra xidmətinin ağır iş yükünü yüngülləşdirir, icra tədbirlərinin vaxtında, dəqiq və asanlıqla görülməsini, qanuni müddətlərə riayət olunmasını təmin edir. Eyni zamanda, icra məmurlarının fəaliyyətinə nəzarəti təmin etməklə onları intizamlandırır. Sui-istifadəyə şərait yarada bilən hallar bu sistemin tətbiqi ilə avtomatik şəkildə aradan qalxır.

Bu sahədə tədbirlər davam olunmaqdadır, "elektron icra" sisteminin bir sıra yeni komponentlərinin tətbiqi, o cümlədən hər bir icraat iştirakçısının tərəf olduğu işlə bağlı bütün məlumatları elektron qaydada əldə etmək imkanlarının yaradılması üzrə işlər görülür. Yaxın gələcəkdə bu imkanın həm Ədliyyə Nazirliyinin elektron xidmətlər bölməsi, həm də "Elektron hökumət" portalı vasitəsilə təmin edilməsi nəzərdə tutulur.

Nazirliyin elektron xidmətlər bölməsi vasitəsilə vətəndaşlar icra xidmətinin bir sıra fəaliyyət istiqamətləri, o cümlədən ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması, icra qurumları, onlar tərəfindən hərraca çıxarılan əmlaklar, eləcə də dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlakın satışı üzrə ticarət şəbəkələri barədə məlumat almaq imkanına malikdirlər. Həmçinin, borcun, icra ödənişinin, icra hərəkətləri ilə bağlı xərclərin elektron qaydada ödənilməsi mümkündür.

**- Qeyd etdiniz ki, icra işinin yaxşılaşdırılması üçün hərtərəfli tədbirlər görülür. Bununla belə bəzi icra sənədlərinin icra olunmamasının səbəbini nə ilə izah etmək olar?**

- Bəzi hallarda məhkəmə qərarları bir müddət icrasız qalır. Bunun obyektiv və subyektiv səbəbləri mövcuddur. Subyektiv səbəblər əsasən bəzi icra məmurlarının işə laqeyd münasibəti və vətəndaşlarla münasibətlərin düzgün qurulmamasıdır. Bu hallarda həmin icra məmuruna qarşı sərt, o cümlədən intizam tənbeh tədbirləri görülür. Amma əksər hallarda məhkəmə qərarlarının icra olunmamasının səbəbi obyektiv amillərlə bağlı olur. Belə ki, borclunun icradan yayınmaqla axtarışda olması, habelə ölkə hüdudlarını tərk etməsi, ona məxsus hər hansı əmlakın olmaması tələbin qanunla müəyyən edilən müddətdə icrasını demək olar ki, mümkünsüz edir. Təəssüf ki, bu cür icra işlərinin sayı az deyil.

